Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 272 (7999) BAZAR, 2 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## AZƏRBAYCANÇILIQ VƏTƏN SEVGİSİNDƏN BAŞLANIR

Azərbaycan tarix boyu heç zaman indiki kimi qüdrətli, güvənli olmayıb. Ölkəmizdə dünya dövlətlərinin heç birinə bənzəməyən, özünəməxsus iqtisadi və siyasi inkişaf modelinin formalaşması faktı tam təsdiqini tapıb. Bu dövrdə Azərbaycanın strateji inkişaf kursunun davamlılığının təmin olunması, qazanılmış nailiyyətlərin qorunması, yürüdülən müstəqil xəttin, cəmiyyətdə ictimai-siyasi sabitliyin dayanıqlığı, vətəndaş cəmiyyəti quruculuğu, ölkənin insan kapitalı ilə gələcəyə hazırlanması kimi mütərəqqi çağırışlardan uzaq düşməməsi və mütləq çoxluğun mənafeyini dolğun şəkildə əks etdirən amillərin qlobal səciyyə daşıması mühüm nailiyyəti ilə ictimai şüurda həm möhkəmlənib, həm də milli ideya səviyyəsinə yüksəlib.

Bu ideyalar özünü ilk növbədə iqtisadiyyatın müəyyən gözləntilərini təcəssüm etdirib, zamanla inkişaf edib, yeniləşib, fərqli hədəf və məqsədləri özündə birləşdirib. Bütün bunların kökündə isə azərbaycançılıq ideologiyasının əsasını şərtləndirən vətənə məhəbbət, yurda, torpağa bağlılıq hissi dayanıb. Xalqın milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu göstərən dəyərləri qorumağa yönələn fəaliyyət üstünlük təşkil edib.

Bu gün vətənpərvərlik birinci növbədə insanın öz ölkəsinə olan sevgisidir. Azərbaycançılıq ruhu bu hisdən başlanır. Mənəviyyat abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanlarının az qala hər sətrindən bunları oxuyur, görür və duyuruq. Ən qədim dövrlərdən üzü bəri yazıb-yaradan klassiklərimizin, şair və yazıçılarımızın əsərlərindən əxz edirik. Bu irsin aşıladığı düşüncə bizi vətənpərvərlik anlayışına milli zəmində qarşıdurma yaradan ziyanlı ideologiya kimi deyil, bu torpaqları özünə vətən bilən bütün soydaşlarımızın ümummilli maraqlarının müdafiəsi yönündə birləşməsini təmin edən sistem kimi yanaşmağa öyrədir. Bu gün Azərbaycanın bütün dünyaya təlqin etdiyi multikultural dəyərlər, fərqli mədəniyyətlərə hörmət hissi, tolerantlıq eyni zamanda öz vətənimizə də məhəbbət hislərini gücləndirir.

2008-ci ildən başlanmış "Bakı prosesi"nin nailiyyətləri ilə, bu proses çərçivəsində keçirilən qlobal forumlarla, dövlətimizin əldə etdiyi siyasi-iqtisadi uğurlarla vətənimizi sanki yenidən kəşf edirik. Bütün dünyada inkişaf, mədəniyyətlərarası dialoq, sabitlik məkanı kimi qəbul olunan belə bir vətənə, Yer üzündə ali ideyalar yayan belə bir xalqa aidlik duyğusu ilə, təbii ki, qürur duyuruq.

### "Mən azərbaycanlıyam"

Tariximizin ən böyük vətənpərvəri olan ulu öndər Heydər Əliyevin təlqin etdiyi düşüncə, yaratdığı nümunə hər birimiz üçün mükəmməl vətənpərvərlik məktəbi, vətənə sədaqət dərsidir. "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən ümummilli lider öz mənəvi irsi ilə insanın vətəninə sevgisinin həm də onun mənəviyyat göstəricisi olduğunu təlqin edir.

*Ardı 2-ci səh.*

## Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2018-ci il*

## Amerika Birləşmiş Ştatlarının 43-cü Prezidenti zati-aliləri cənab Corc Uoker Buşa

Zati-aliləri!

Atanız - Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı xəbərindən son dərəcə kədərləndim.

Bu ağır anlarda dərdinizi bölüşür, əvəzsiz itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2018-ci il*

## Laos Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Bounyanq Voraçitə

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2018-ci il*



## Həyata dönüş

Bir gün ayağındakı protezi qara rəngə boyayır ki, şort geyinəndə qəşəng görünsün...

Başqa bir gün isə protezinə bərkidilmiş zəncirbəndi sındırıb atır, deyir ki, ayağımı düz saxlayır, velosiped sürə bilmirəm...

Həyatdə ox-yay düzəldir, hələ altı yaşı tamam olmamış qarmaqla balıq tutaraq ilk ovunu da edir...

Turnikdə idman edir, rolik sürür, sürətlə qaçır...

Bir sözlə, o, bu dünyaya idmançı gəlib...

Binəqədidəki 143 nömrəli orta məktəbin 3-cü sinif şagirdi Əli Vəliyevdən danışırıq.

Məktəbdə hamının sevimlisidir, əlaçıdır, sinif nümayəndəsidir, böyüyəndə cərrah olmaq arzusundadır...

### Ən yüksək zirvəyə doğru...

Anadangəlmə bir ayağı gödək doğulan Əli barədə hələ körpə vaxtlarından həkimlər deyib ki, bu cür ayaqla gəzmək çox çətin olar, yəni ayağı sına bilər. Amma Əli həyatsevərliyi, hərəkətliyi, idmana olan hədsiz istəyi sayəsində bütün diaqnozları alt-üst edib...

Üzgüçülüyə olan xüsusi həvəsini görən valideynləri Əlini Sumqayıtdakı Paralimpiya Üzgüçülük Kompleksinə yazdırırlar və qısa zaman ərzində o, dalbadal qələbələr qazanaraq yaxınlarının, məşqçilərinin sevincinə səbəb olur.

Üzgüçülüklə qısa zaman ərzində məşğul olmasına baxmayaraq, öz kateqoriyası üzrə 2017-ci ildə keçirilən 3-cü, 2018-ci ildə isə 4-cü Uşaq Paralimpiya Oyunlarının qalibi olur. Bu il Göygöldə Azərbaycan Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən yarışda da çempionluq sevinci yaşayır.

*Ardı 4-cü səh.*

## İstehsal məhsuldarlıq hesabına çoxalır

Ölkəmizdə aqrar sektor prioritet sahə sayılır. Bu üzdən kənd təsərrüfatının inkişafı üçün fermerlər torpaq vergisindən savayı, bütün növ vergilərdən azad ediliblər. Onlara həmçinin istifadə etdikləri yanacaq və sürtkü yağlarına görə də subsidiya ödənilir. Güzəştli kreditlərdən ən çox istifadə edənlər də fermerlərdir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında aqrar sektorun inkişafını, burada aparılan islahatların əhəmiyyətini vurğulayaraq demişdir: "Kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir, 4,3 faiz artım müsbət hadisədir. Amma əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha böyük nəticələrə çatmağa imkan verəcəkdir... Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə məhsuldarlığı artıraraq, biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik".

*Ardı 2-ci səh.*





## Aqrar islahatlarda müasir texnologiyaların aparıcı rolu artır

### Təkcə cari ilin 9 ayında ölkənin kənd təsərrüfatı üçün 5700-dən çox yeni texnika alınmışdır

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində kənd təsərrüfatının inkişafının daim diqqət mərkəzində olduğunu qeyd edərək bu sahədə məhsul istehsalının 4,3 faizlik artımını müsbət hal kimi qiymətləndirmişdir.

Dövlət başçısı bunu həm də kənd təsərrüfatının texniki təchizatının gücləndirilməsi ilə əlaqələndirmişdir. Yalnız cari ilin 9 ayında 5700 kənd təsərrüfatı texnikası alındığını diqqətə çatdıran Prezident İlham Əliyev bunu belə dəyərləndirmişdir: "Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Mənə məruzə edildi, mən bu islahatları dəstəklədim". Dövlət başçısı aqrar sektora həmçinin müasir texnologiyaların, elmi yanaşmaların geniş tətbiq edildiyini vurğulamış və islahatların məhsuldarlığa ciddi təsirini qeyd etmişdir.

Aqrar sektor müasir texnika və avadanlıqlarla təchiz edilməklə yanaşı, avadanlıq və mexanizmlərin Azərbaycanın iştirakı ilə üçüncü ölkələrə çıxarılması üçün də ciddi addımlar atılır, real nəticələr əldə edilir.

Öncə ölkə daxilində aqrar sektorun maşın və mexanizmlərlə təchizatını nəzərdən keçirək.

*Ardı 2-ci səh.*

# Prezident İlham ƏLİYEV: “Azərbaycanlılar vətənə bağlı insanlardır”

**Azərbaycanlılar dünyada özlərini həmişə öz vətəninə bağlı insanlar kimi göstəriblər. Bu gün də bu, belədir. Əlbəttə, biz çox istəyirik ki, xaricdə yaşayan hər bir azərbaycanlı heç olmasa, ildə bir dəfə Azərbaycana gəlsin.**

Birincisi, ona görə ki, vətənlə əlaqələr qırılmasın. İkincisi, ona görə ki, Azərbaycanın müxtəlif yerlərində çox gözəl şərait yaradılıb. Bakı şəhərində, bölgələrimizdə istirahət üçün gözəl, müasir hotellər, istirahət zonaları var. Hesab edirəm ki, Azərbaycan indi dünya miqyasında öz imkanlarını ortaya qoyur.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 74-cü kitabında yer alan bu fikirlər dövlət başçısının 2016-cı il iyunun 3-də Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimində söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin mayından iyul ayınadək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin Avstriyaya, Rusiyaya işgüzar səfərlərinə dair informasiyalar, İstanbulda Dünya Humanitar Sammitində, Berlində Azərbaycan-Almaniya iqtisadi forumunda çıxışlarının mətnləri, NATO Sammitində iştirak etmək üçün Polşaya səfəri barədə materiallar, sammitin Əfqanıstanla bağlı sessiyasında çıxışının mətni daxil edilib.

Nəşrdə dövlət başçısının Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyənin Baş naziri ilə görüşü, Rusiya Federasiyası Dağıstan Respublikasının başçısını qəbul etməsi barədə informasiyalar yer alıb.




Çoxcildliyin 74-cü kitabında Prezident İlham Əliyevin İndoneziya, Niderland, Bolqarıstan, İran, Rusiya, Belarus, Çin, Türkiyə, İtaliya, Əfqanıstan, Böyük Britaniya və digər dövlətlərin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, “The Business Year” jurnalının baş redaktorunu və baş direktorunu qəbul etməsi barədə materiallar toplanıb.

Kitaba, həmçinin Azərbaycan Prezidentinin qoşunların təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarına səfərlərinə, sakinlərlə görüşlərinə, Bakıda aparılan yenidənqurma və abadlıq işləri ilə tanışlığına dair materiallar daxil olunub.

Bu nəşrdə Prezident İlham Əliyevin XXIII Beynəlxalq “Xəzər Neft və Qaz-2016” sərgi və konfransının açılışı mərasimində, Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında söylədiyi nitqlərinin mətnləri, XXII Beynəlxalq Qida Sənayesi və X Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanışlığına dair informasiyalar toplanıb.

Dövlət başçısının ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi, 28 May - Respublika Günü ilə əlaqədar rəsmi qəbullarda söylədiyi nitqlərinin, “Gəncə-2016-cı il Avropa gənclər paytaxtı” layihəsinin açılışı mərasiminin iştirakçılarına ünvanlanmış məktubunun, 80 illik yubileyi münasibətilə şair Oljas Süleymenova təbrikinin və digər müraciət və məktubların mətnləri ilə də bu kitabda tanış olmaq mümkündür.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 74-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyana

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2018-ci il*

## Əbu-Dabi Əmirliyinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2018-ci il*

## Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktuma

Əlahəzrət!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2018-ci il*

# Azərbaycançılıq vətən sevgisindən başlanır

*Əvvəli 1-ci səh.*

Bildirir ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır. “Əgər bunlar yoxdursa, o insanın mənəviyyatından danışmağa dəyməz. Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs həyatın heç bir hadisəsinə laqeyd qalmır”. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir. Onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir.

Ulu öndər deyirdi: “Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malikdir. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu hər kəsə nə qədər dərindən anlada bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik, vətəndaşlıq hissini, azərbaycançılığı yüksəldərik”.

Ümummilli liderin hələ sovetlər zamanında respublikaya rəhbərliyinin bütün fəlsəfəsi xalqın milli dirçəlişi, milli qürur hislərinin oyanışı məramına hesablanmışdır. İdarəçilikdə bütün addımlar, o cümlədən iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Heydər Əliyev azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuş, nəticədə respublikada dissident yazarlar olmamışdır.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində, kifayət qədər gərgin və taleyüklü bir məqamda xalqa rəhbərlik missiyasını öz üzərinə götürən ulu öndərin yürütdüyü siyasət yenə də xalqın tarixi ənənələrinin, mənəvi dəyərlərinin, özünəməxsusluğunun müdafiəsinə, qloballaşmanın mənfi təsirlərinin aradan qaldırılmasına xidmət etmişdir. Bütün varlığı ilə ali dəyərlərə bağlı olan, parlaq şəxsiyyətində azərbaycanlılara xas əxlaqi keyfiyyətləri yaşadan ümummilli lider yeni ictimai-iqtisadi formasiyada - bazar iqtisadiyyatı şəraitində mənəviyyat məsələlərinin, xüsusilə vətənə, torpağa sədaqət hissinin ayrıca diqqət mərkəzində saxlanılmasının vacibliyini daha düzgün qiymətləndirmiş, bu istiqamətdə sistemli və ardıcıl siyasət yürütmüşdür.

### Vətənpərvərlik nümunəsi

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə yürütdüyü siyasətlə milli dəyərlərin, əxlaq normalarının ictimai şüurda möhkəmlənməsinə, eyni zamanda milli-mədəni sərvətin mühafizəsinə və yaradılmasına çalışmışdır. Qərbin kosmopolit ideyalarının sürətlə yayıldığı bir dövrdə milli məfkurənin qorunması, habelə azərbaycançılığın mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi, dini dəyərlərin, adət-ənənələrin gənc nəslə aşılanması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycan xalqının milli düşüncəsində, şüurunda tarixi ənənələrə söykənmiş əxlaq kateqoriyası dərin kök salmışdır. Mərdlik, iradə, dosta və prinsiplərə sədaqət, dildə və əməldə birlik orta statistik azərbaycanlı üçün tarixən ən vacib və vicdanlı yaşam atributları olmuşdur. Böyük rəhbər sadəlik, düzgünlük, vicdanlılıq, ləyaqətlilik, məğrurluq, mərdlik, cəsarətlilik kimi normaları daha uca tutmuş, irəli çəkdiyi, etimad göstərdiyi kadrların da bu keyfiyyətlərə malik olmasına ciddi yanaşmışdır. Ulu öndərin idarəçiliyinin bütün mərhələlərində qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması da, əslində, onun zəngin mənəviyyatından rişələnmişdir. Heydər Əliyev gücün siyasətinə qarşı qanunun gücünü qoyaraq “haqlı həmişə güclüdür” amilindən çıxış etmişdir.

Ulu öndər müxtəlif dövlət tədbirlərində gəncləri mənəviyyat, əxlaq, təlim-tərbiyə məsələlərinə xüsusi həssaslıqla yanaşmağa çağırırdı. Bu da təsadüfi deyildi - ötən əsrin 90-cı illərinin sonuna doğru Azərbaycan gəncliyi müxtəlif yad təsirlərə, yardımçı neqativ dəyərlərin, ictimai şüurda həzm olunmayan “ənənələr”in hücumuna məruz qalırdı. Həmin dövrdə xalqın qəlibləşmiş millimənəvi, əxlaqi dəyərlərini sıradan çıxarmağa yönələn “universal” və ya “kosmopolit” halların gənclər arasında təbliği də geniş vüsət almışdı.

Sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, dünya iqtisadiyyatının təmərküzləşməsi, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı bəzən mütərəqqi mahiyyətindən uzaqlaşır, milli mədəniyyətə, mənəvi dəyərlər sisteminə təhlükəyə çevrilir. Bəşəri və milli ideallar, zəngin mənəvi dəyərlər ifrat praqmatikləşmiş kapital münasibətləri fonunda müəyyən aşınmaya məruz qalır. Belə bir şəraitdə gənclərdə milli mənlik şüurunu qoruyub saxlamaq, milli özünüdərki gücləndirmək son dərəcə vacib və aktual problem kimi önə çıxır. Azərbaycanın da belə bir vəziyyətdə üzləşmək təhlükəsində olduğunu görən ulu öndər xüsusilə də gənclərə milli-mənəvi dəyərlərə, adət-ənənələrə hörmətlə yanaşmağı tövsiyə edirdi, onları mənəvi ucalığa dəvət edirdi.

Bu örnəklər göstərir ki, vətənpərvərlik əslində ötürülən hisdir. Onun gənc nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi çox vacibdir. Ona görə də bu məsələ təlim-tərbiyə işinin mühüm istiqamətlərindən, məktəbin ən vacib vəzifələrindən olmalıdır. Ölkəmizin tarixi, xalqımızın millimənəvi dəyərləri haqqında sistemli, ardıcıl, yeniyetmə və gənclərin başa düşəcəyi tərzdə verilən məlumatlar vətənpərvərlik tərbiyəsində çox mühüm rol oynayır. İstər dərsliklərdəki ayrı-ayrı mətnlərdə, istərsə də aparılan tərbiyəvi söhbətlərdə, tədbirlərdə verilən belə məlumatlar gənclərin vətənimizin zəngin tarixi, xalqımızın zaman-zaman öz varlığını qorumaq üçün apardığı mübarizələr, azadlıq və müstəqillik uğrunda gedən mücadilələr haqqında biliklər əldə etməsinə şərait yaradır. Bu biliklər əqidəyə çevrilərək onlarda vətənpərvərlik hislərini daha da artırır.

### Gələcəyə daşımalı olduğumuz dəyərlər

Vətənpərvərlik tərbiyəsində xalqımızın qəhrəman oğulları, tarixi şəxsiyyətlər haqqında verilən məlumatlar, aşılanan biliklər də güclü təsir qüvvəsinə malikdir. Vətənpərvərlik tərbiyəsi işi onların vətənə məhəbbət və sədaqət ruhunda böyümələrinə, xalqımıza xas olan ən yaxşı mənəvi və əxlaqi keyfiyyətlərə yiyələnmələrinə müsbət təsir göstərir. Azərbaycan Prezidenti çıxışlarında hər dəfə xüsusi vurğulayır ki, xalqın hər bir nümayəndəsi vətənpərvər olmağı bacarmalıdır. Hər kəs vətəni öz şəxsiyyətində yaşatmalıdır. Vətən sevgisini şəxsi keyfiyyətləri ilə nümayiş etdirməlidir. Vətənpərvərlik özündən də çox el üçün yaşamaqdır. Bu gün üçün deyil, gələcək üçün ömür sürməkdir. Tarixdə bir iz qoyub əbədiyyət qazanmaqdır. “Mən” deyil, “biz” düşüncəsidir. Diplomat siyasətiylə, alim elmiylə, yazıçı, şair qələmiylə, tarixçi üzə çıxartdığı doğrularıyla, analar böyütdükləri nəcabətli övladlarla, gənclərimiz təhsili, tərbiyəsiylə, qızlarımız nəsilbənəsil bizə miras qalmış ismətləriylə, oğullarımız mərdliyi, qeyrətiylə vətən sevgisini göstərməlidir. Bu sevgiyə hər zaman ehtiyacımız olub. Bu gün uğurlarına sevindiyimiz, bayrağını öpüb gözlərimiz üstünə qoyduğumuz, sərhədlərini keçən kimi havasını ciyərimizə çəkdiyimiz, əsgərinin addım səsləri ilə öyündüyümüz müstəqil Azərbaycan Respublikası bu sevginin övladıdır. Tarixin ən qədim qatlarında bu torpaqları qorumaq üçün qılınc çalmış əcdadlarımızın, xalqı milli ideyalar ətrafında bir araya gətirərək dövlət qurmuş, onun müstəqilliyini əbədi etmiş düşüncə adamlarımızın, bu dövlətin azadlığı uğrunda canını vermiş şəhidlərimizin vətən sevgisinin nəticəsidir. Onların vətənpərvərliyinin əsəri bu gün tarixinin ən qüdrətli çağlarına qədəm qoymuş Azərbaycan dövlətidir. Bu dövlətin gələcəyi də onun vətəndaşının öz ölkəsinə olan sədaqət borcunu layiqincə yerinə yetirməsindən asılıdır. Azərbaycan dövlətinin, ölkə rəhbərliyinin cəmiyyətimizə aşıladığı düşüncə, dəyər budur!

Müsahibələrinin birində Azərbaycan Prezidentinə belə bir sual verilmişdi: “Gələcəkdən danışarkən keçmişdən nə götürmək istərdiniz və Sizi həmişə nə müşayiət edərdi?” Buna dövlət başçısının cavabı belə olmuşdu: “Ləyaqəti keçmişdə qoymaq olmaz. Heç bir halda. Ədəb-ərkan hissini, insanlara xoş münasibət hissini, vətənpərvərlik hissini. Düşünürəm ki, hər bir kəs bu əsas məqamları özü ilə irəli aparmalıdır”.

### Azərbaycan gəncliyinə çağırış

Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzi, intellektual səviyyəsi, milli ruhu əsasında formalaşır. Azərbaycan gəncliyi xalqımızın əsrlər boyu yaratdığı dövlətçilik ənənələrini, milli mədəniyyəti gələcəyə daşıyan böyük qüvvədir. Onlar dövlətimizin həm bugünü, həm də gələcəyidirlər. Son illərdə ardıcıllıqla qəbul edilmiş və hazırda uğurla həyata keçirilməkdə olan “Azərbaycan gənclərinin inkişaf strategiyası (2015-2025-ci illər)”, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı, xüsusilə gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyəsinə, onlar arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğinə və s. məsələlərə yeni imkanlar yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkə üçün layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi, cəmiyyətdə vətənpərvərlik ruhunun daim yüksək olması məqsədi dayanır. Belə bir ruh Azərbaycanda regionun ən qüdrətli ordusunu formalaşdırıb. Hər addımında insanlarımızın sevgisini, dəstəyini duyan bu ordu sıralarında xidmət edən gənclərimizin vətən sevgisinin gücü ilə nələrə qadir olduqlarını onlar 2016-cı ilin Aprel zəfərində sübuta yetirdilər. Bununla həm də Azərbaycanda necə cəsur, vətənpərvər bir gəncin yetişdiyini görürük. Müstəqillik dövründə böyümüş gənclik Qarabağ müharibəsinin, itirilmiş torpaqlarımızın dərslərini yaxşı mənimsəyir. Bu işdə vətənpərvərlik təbliğatı aparan insanlarımızın da böyük əməyi vardır.

Bu il iyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin, sentyabrın 15-də Bakının işğalçılardan azad edilməsinin 100-cü ildönümü günü münasibətilə keçirilən hərbi paradlar da cəmiyyətdə vətənpərvərlik ruhunu yüksəldən möhtəşəm hadisələr idi. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, dövlət başçısı İlham Əliyevin bu tarixi tədbirlərdəki çıxışları cəmiyyət üçün əsl vətənpərvərlik tərbiyəsi, gəncliyə çağırışı idi: “Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilməz və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır”.

Azərbaycan dövləti dünyanın hər yerində yaşayan soydaşlarımızın tarixi vətənidir. Özünü bu vətənə bağlı sayan hər kəsin ruhunun qibləsidir. Həyata keçirilən diaspor siyasəti bütün dünya azərbaycanlılarını vətənin mənafeləri ətrafında bir araya gətirir. İndi beynəlxalq tribunalarda olduğu kimi, dünya azərbaycanlılarının yaşadıqları cəmiyyətlərdə də səsimiz daha yüksəkdən eşidilir. Vətənpərvərlik əzmi diplomatik səngərlərdə də Azərbaycana mühüm zəfərlər qazandırır.

Biliyin, savadın, mükəmməl təhsilin ölkələrin əsas güc faktoruna çevrildiyi müasir dövrümüzdə əsl vətənpərvərlik həm də vətənin sabahı üçün elmli, təhsilli insan kimi yetişməkdir. Yüksək bilik və səriştə ilə, innovasiyalara bələdliklə onun inkişafına töhfə verməkdir. Azərbaycan dövləti bu istiqamətdə də gənclərimizə dəstək verir, yol göstərir, onların inkişafına şərait yaradır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən təhsil, innovasiya layihələri, bütün ölkə boyu tikilən, abadlaşdırılan məktəb binaları, Azərbaycan gənclərinin təhsilinə, fərdi inkişafına verilən dövlət dəstəyi böyüməkdə olan nəsildə aşılanan vətənpərvərlik ruhudur. Bu siyasət nəticəsində Azərbaycan gənclərinin xoş sorağı bu gün dünyanın ən nüfuzlu universitetlərindən, tanınmış elmi mərkəzlərdən, beynəlxalq idman arenalarından, mədəniyyət səhnələrindən eşidilir. Onlar öz nailiyyətləri ilə vətənin adını ucalara qaldırırlar.

Və bu nailiyyətlərin işığında Azərbaycanın istiqbalı daha parlaq görünür.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Aqrar islahatlarda müasir texnologiyaların aparıcı rolu artır

*Əvvəli 1-ci səh.*

Azərbaycan müstəqilliyini elan etdikdən bir neçə il sonra torpaqların özəlləşdirilməsi müsbət nəticə versə də, fermerlər sovet dönəmindən qalan istismar müddəti bitən maşın və mexanizmlərin əlində aciz qalmışdılar. Belə texnikaların tez-tez sıradan çıxması, aramsız təmirə məruz qalması bu sektorun inkişafında maneələr yaradır, yüksək nəticələr əldə etməyə imkan vermirdi.

Elə həmin illər kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidi, qabaqcıl texnologiyaların, maşın və mexanizmlərin ölkəyə gətirilməsi üçün dövlət tərəfindən zəruri tədbirlər görülməyə başlandı. Bu sahənin texniki təchizatının yaxşılaşdırılması, kənd təsərrüfatı texnikası parkının müasir avadanlıqlarla yeniləşdirilməsi və alınan texnikalardan səmərəli istifadə edilməsi prioritet götürüldü. Torpaq-iqlim şəraitinə və müasir texnoloji tələblərə cavab verən avadanlıq və mexanizmlərin ölkəyə gətirilməsi qarşıya məqsəd qoyuldu.

“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə də islahatlar zamanı aqrar sektorun texnikaya olan tələbatının vaxtında və etibarlı təmin edilməsi və ehtiyatların yaradılması vacib faktor kimi önə çəkildi. Aqrar sektora aid avadanlıqların geniş çeşidlərini özündə cəmləyən parkların yaradılması, modern texnika və texnologiyaların kənd təsərrüfatında tətbiqi, təchizatın koordinasiyası və özəl aqroservis xidməti şəbəkəsinin genişləndirilməsinə diqqət artırıldı. Texniki təminatla bağlı həyata keçirilən tədbirlər nəticəsində dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına 2017-ci il 7 sentyabr tarixinə “Aqrolizinq” ASC tərəfindən alınıb istifadəyə verilən müxtəlif növ kənd təsərrüfatı texnikasının sayı 36 minə yaxınlaşdı. “Aqrolizinq” ASC-nin 12 illik fəaliyyəti dövründə alınmış texnikanın 53, o cümlədən taxılyığan kombaynların 36, pambıqyığan kombaynların 100, traktorların 50 faizi 2014-2017-ci illərin payına düşür. Son illərin belə sürətli artım dinamikası indi islahatların yüksək tempini təmin edir.

Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli qərarına əsasən, “Aqrolizinq” ASC tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya, suvarma sistemləri dəstinə və avadanlığına onların ilkin dəyərinin 40 faizi həcmində güzəştlərin tətbiq edilməsi fermerlərin müasir texnologiyalara sürətlə yiyələnməsinə və məhsuldarlıqda müsbət nəticələr qazanmalarına zəmin yaratmışdır. ASC-dən lizinq yolu ilə satın alınan kənd təsərrüfatı texnikasına tətbiq olunan güzəştlər kənd təsərrüfatı istehsalının xidmət seqmentində çalışanların xeyli aktivləşməsinə və sayının artmasına səbəb olmaqla bərabər, aqrar sahədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına, habelə regionların sosial-iqtisadi inkişafına və kənd əhalisinin məşğulluq səviyyəsinin artmasına müsbət təsir göstərmişdir. Bunu “Aqrolizinq” ASC tərəfindən lizinqə verilən texnikaların sayının artım dinamikası da təsdiq edir. Məsələn, 2015-ci ilə qədər lizinqalanlarla “Aqrolizinq” tərəfindən lizinqə verilən texnikaların sayının artımı mütənasib olaraq davam edib. 2016-cı ildən isə bu tendensiya dəyişmiş və lizinqə götürülən texnikaların sayı yüksələn xətt üzrə gedir.

Nazirlər Kabinetinin 2015-ci il 14 oktyabr tarixli qərarına əsasən, “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə lizinq yolu ilə satılması Qaydaları”nın təkmilləşdirilməsi də aqrar islahatları sürətləndirən amildir. “Aqrolizinq” ASC sistemində lizinq xidmətlərinin avtomatlaşdırılması və şəffaflığın təmin edilməsi təchizat işlərini sürətləndirmək və müasirləşdirilməklə yanaşı, lizinqalanlar tərəfindən müqavilə öhdəliklərinin vaxtında yerinə yetirilməsi və ödəniş qrafiklərinə riayət edilməsinə operativ nəzarət mexanizminin qurulmasına imkanlar yaratmışdır.

Görülən vacib işlərdən biri də kənd təsərrüfatı texnikası parkının müasirləşdirilməsidir. Hazırda dünyanın qabaqcıl texnika istehsalçıları kimi tanınan “John Deere”, “Claas”, “New Holland”, “Sampo Rosenlew” və s. məşhur şirkətlərin istehsal etdikləri müxtəlif növ texnikalar Azərbaycan fermerlərinin istifadəsindədir. Ümumiyyətlə, Azərbaycan bir sıra dövlətlərlə yeni texnologiyalar və elmi-texniki sahədə əməkdaşlığı diqqət mərkəzində saxlayır. Bu baxımdan Minskdə “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında Saziş”in imzalanması aqrar münasibətlərin yeni perspektivlərini təyin edir. Belarusun paytaxtında görülən işlərə verilən qiymət, perspektivlərə köklənən iqtisadi əməkdaşlıq planları Azərbaycanın dünya iqtisadiyyatında ən mürəkkəb islahatlara belə hazır olduğunu ortaya qoyur.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# İstehsal məhsuldarlıq hesabına çoxalır

*Əvvəli 1-ci səh.*

Göründüyü kimi, Prezidentin aqrar sektorun qarşısında qoyduğu əsas vəzifə istehsalı məhsuldarlıq hesabına artırmaqdır.

Götürək heyvandarlığı. Azərbaycana Avropadan məhsuldar cins mal-qara gətirilir. Belə cinslərdən biri südlük-ətlik və ətlik-südlük istiqamətli simmental cinsidir. Bu heyvanın məhsuldarlıq və damazlıq keyfiyyəti olduqca yüksəkdir. Onlar həmçinin yerli cinslərin təkmilləşdirilməsində istifadə olunur. Simmental cinsi çoxlu süd istehsal etmək, tezyetişənlik, sürətli boyatma, kökəlmə qabiliyyəti, ən yüksək keyfiyyətli əti ilə də seçilir.

Ölkəmizə gətirilən məhsuldar növlərdən digəri Holştin-filiz cinsli inəklərdir. Yüksək məhsuldarlığı və yerli şəraitə tez uyğunlaşma qabiliyyətinə görə onun yayılma coğrafiyası genişdir. Belə ki, bu cins heyvanlar Avropada və Şimali Amerikada fermerlər tərəfindən çox istifadə olunur. Holştin-filiz cinsi yüksək südvermə qabiliyyətinə görə fərqlənir. Hər bir inəyin orta illik süd sağımı 9-10 min kiloqrama çatır. Onu da qeyd edək ki, hər iki cinsdən olan heyvanlar ölkəmizdə fermerlərə güzəştli şərtlərlə satılır.

Dövlət baramaçılığın, fındıqçılığın inkişafı üçün də fermerləri bu növ məhsulların məhsuldar tingləri ilə təmin edir. İndiyədək baramaçılığın inkişafı üçün kümçülərə milyonlarla tut tingi verilib. Fındıq bağlarının əkin sahələrinin genişləndirilərək 80 min hektara çatdırılması üçün də tədbirlər görülür. Bu hesaba bağbanlara məhsuldar fındıq tinglərinin satışının artacağı gözlənilir.

Belə hal taxılçılıqda da mövcuddur. İndi taxılçılar güzəştli şərtlərlə yüksək məhsuldarlığa malik elit sortlarla təmin olunurlar. Bunun nəticəsidir ki, belə sortlardan istifadə edən iri fermer təsərrüfatlarında hər hektardan 50 sentner məhsul götürülür.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***




Xalqımızın ümummilli lideri Heydər Əliyev vaxtilə demişdir: “Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz!” Ulu öndərin illər öncə Azərbaycanın cənnətmisal diyarı Qarabağa verdiyi dəyər bu gün də son dərəcə aktualdır. Biz bir millət olaraq doğma vətənimiz Azərbaycanın gözəl guşəsi Qarabağa sahib olmalı, Ermənistan silahlı qüvvələrinin əsrin dörddəbiri qədər uzun zaman kəsiyində işğal altında saxladığı yurd yerlərimizi azad etməliyik.







# Aydın məqsəd, doğru yol





Düzdür, dünya nizamı, müasir beynəlxalq siyasi durum, beynəlxalq aləmdə münaqişənin ikili standartlarla qiymətləndirməsi Qarabağın azadlığına aparan yolda qarşımıza ciddi maneələr çıxarır. Amma respublika Prezidenti İlham Əliyevin yeritdiyi müdrik siyasət sayəsində Azərbaycan bu maneələri inamla dəf edir, böyük qələbəni sürətlə yaxınlaşdırır. Güclü havadarlarının köməyinə arxalanan Ermənistanın xülyaları artıq puç olmaqdadır. İndi Ermənistan iqtisadi böhran, siyasi intriqalar burulğanında boğulmaqdadır. Məkrli düşmənimizin eyni vaxtda iki kresloda oturmaq - həm Rusiyanın, həm də Qərbin dostu, strateji müttəfiqi olmaq planları ifşa olur, fiaskoya uğrayır.

Belə bir mürəkkəb ictimai-siyasi situasiyada Azərbaycan Prezidentinin seçdiyi yol düzgün, məqsəd isə aydındır. Məqsəd xalq-dövlət birliyinin yenilməz gücü, ordumuzun artan qüdrəti, xalqın yüksək əhvali-ruhiyyəsi ilə ən yaxın zamanda işğal altındakı torpaqlarımızı azad etməkdir. Dövlət başçısının təşəbbüsü ilə cəbhə bölgəsində inşa edilən məktəb, xəstəxana, uşaq bağçası, Muğam Mərkəzi də, çəkilən yeni asfalt yollar, salınan yeni körpülər, dövlət qayğısı ilə təmas xəttinə yaxın ərazilərdə təmir edilən evlər, abadlaşdırılan yaşayış məntəqələri də məhz bu ali məqsədə xidmət edir.

Bu yaxınlarda Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban Əliyeva ilə birlikdə Ağdama növbəti səfər etdi. Zəngin proqrama malik bu səfər rayonun sosial-iqtisadi inkişafına yeni və güclü təkan oldu, bölgə əhalisinin həyat şəraitinin daha da yaxşılaşmasına sanballı töhfə verdi. Dövlət başçısı səfər çərçivəsində Muğam Mərkəzinin, xalçaçılıq fabrikinin, Ağdam Atçılıq Kompleksinin açılış mərasimlərində iştirak etdi, rayonda həyata keçirilən abadlıq-quruculuq işlərini bundan sonra da davam etdirmək istiqamətində yeni tapşırıq və tövsiyələr verdi.

Quzanlı qəsəbəsində milli memarlıq üslubunda inşa olunmuş Muğam Mərkəzi əzəməti ilə göz oxşayır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə gerçəkləşən bu möhtəşəm layihə mayası musiqi ilə yoğrulmuş Qarabağa sanballı və dəyərli bir töhfədir. Bu cənnət məkan diyar milli musiqi tariximizə çox parlaq istedada malik sənətkarlar bəxş etmişdir. Muğamatdan, musiqidən söz düşəndə istər-istəməz göz özünə Şuşa, Ağdam gəlir. Dövlət başçısı və Birinci vitse-prezident Muğam Mərkəzi ilə tanış olandan sonra bölgənin tanınmış sənət adamları ilə bir masa arxasında əyləşib maraqlı söhbət etdilər. Ağdamın tanınmış sənətkarları milli musiqimizin inkişafına göstərdikləri qayğı və diqqətə görə dövlət rəhbərliyinə minnətdarlıqlarını dönə-dönə bildirdilər. Prezident İlham Əliyev Ağdamın adlı-sanlı incəsənət ustaları, mədəniyyət xadimləri ilə görüşdə demişdir: “Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın muğama göstərdiyi diqqət hesab edirəm ki, bütün cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Biz son illərdə muğamın, demək olar ki, dirçəlməsini görürük. Biz əsrlər boyu bu gözəl sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi. Ənənəvi muğam müsabiqələri keçirilir və Azərbaycan televiziyası ilə canlı yayımlanır. Bu müsabiqələrin çox böyük əhəmiyyəti var. Həm gənc nəsil yetişir, həm gənc istedadlar gələcəyə yol tapırlar, həm də muğamın nə qədər gözəl sənət olduğunu bütün Azərbaycan vətəndaşları görür, peyk vasitəsi ilə bütün dünya da görür. Doğrudan da, ənənəvi muğam müsabiqələri çox əhəmiyyətli hadisəyə çevrilmişdir. Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq beynəlxalq muğam festivalları keçirilir. Bu təşəbbüsün də çox böyük əhəmiyyəti var. Çünki biz bu festivalların keçirilməsi ilə bir daha göstəririk ki, muğam milli sənətimizdir və muğamın bu gün dünyada yaşaması böyük dərəcədə Azərbaycan xalqının zəhməti, istedadı hesabına mümkündür. Biz haqlı olaraq hesab edirik ki, muğamın vətəni Azərbaycandır və beynəlxalq festivalların keçirilməsi, əlbəttə, bu tezisi daha da möhkəmləndirir... Bizim incəsənətimiz, ədəbiyyatımız milli ruhumuzu daha da yüksək səviyyəyə qaldırır. Biz elə etməliyik ki, gənc nəsil də milli ruhda tərbiyə alsın, vətənpərvərlik ruhunda böyüsün və gələcəkdə ölkəmizi ləyaqətlə idarə edə bilsin”.

Cəbhə bölgəsi kimi Ağdam hər zaman dövlət qayğısı ilə əhatə olunur. Bu böyük qayğının məntiqi nəticəsidir ki, rayon ərazisində salınmış yeni yaşayış qəsəbələrinin sayı artıq 18-ə çatır. Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti üzündən doğma ev-eşiyindən perik salınıb respublikanın müxtəlif şəhər və rayonlarına səpələnmiş ağdamlıların böyük əksəriyyəti yeni qəsəbələrdə yaşamaq üçün geri dönmüşdür. İndi rayon ərazisində yaşayan əhalinin sayı 93 min nəfərdir. Dövlətin davamlı qayğısı sayəsində rayon ərazisindəki avtomobil yollarının 95 faizi yenilənmişdir. Dövlət başçısının son səfəri çərçivəsində uzunluğu 66 kilometr olan 2 yol layihəsi istifadəyə verilmişdir. Rayonun yaşayış məntəqələrinin qazlaşdırılması artıq 98 faizə çatır. Prezidentin 2016-cı ildə imzaladığı sərəncama əsasən, daha çox ehtiyac duyulan ərazilərdə 30 subartezian quyusu qazılmışdır. Prezident İlham Əliyev səfər sonrası imzaladığı sərəncamlarla ağdamlıların sevincinə sevinc qatdı. Təmas xəttinə yaxın evlərin təmirinə, yeni məktəb binasının tikintisinə, daha 35 subartezian quyusunun qazılmasına büdcədən vəsait ayrılması dövlət qayğısının davamlı olduğunu bir daha təsdiq etdi.

Muğam beşiyi kimi şöhrət qazanmış Qarabağ həm də qiymətli al-əlvan xalçaları, tayı-bərabəri olmayan nadir at cinsləri ilə məşhurdur. Nəfis Qarabağ xalçaları hələ illər öncədən dünya muzeylərinin qiymətli eksponatları kimi nümayiş etdirilir. Qarabağ cinsi olan atlar krallara layiq görülür. Bütün bunlar qürurverici və inkaredilməz gerçəklikdir. Ağdama ünvanlanan qayğının hədəflərindən biri Qarabağ xalçaçılıq məktəbini yaşatmaq, onun uğurlu ənənələrinin davamlı olmasını təmin etməkdir.

Dövlət başçısının xeyir-duası ilə fəaliyyətə başlayan Quzanlı xalçaçılıq fabrikinin kollektivinin üzərinə düşən işi şərəflə reallaşdıracağı heç kəsdə şübhə doğurmur. Yeni Qarabağ xalçaları da dünya muzeylərinin incisinə çevriləcəkdir.

Dünya musiqi sevərlərini sirli-sehrli muğamı ilə heyrətləndirən Qarabağ nəfis xalçaları, füsunkar təbiəti ilə yanaşı, nadir at cinsləri ilə də məşhurdur. Qarabağ atları milli sərvətlərimiz sırasında yer alır. Dövlət başçısı Qarabağda xalçaçılıq sənətinin, milli musiqinin inkişafını sürətləndirmək üçün dövlət səviyyəsində zəruri tədbirlər görərkən Qarabağ atçılığının inkişafına da yetərincə diqqət ayırmışdır. Bu qayğının nəticəsidir ki, uzun illərdən bəri məcburi köçkün həyatı yaşayan Ağdam Atçılıq Zavodu üçün Ağcabədi rayonunun Xam torpaq adlanan ərazisində böyük bir sahədə müasir tələblər səviyyəsində Qarabağ atçılıq kompleksi inşa edilmişdir. Kompleksin açılışını edən dövlət başçısı İlham Əliyev Mehriban xanım Əliyeva ilə birlikdə burada yaradılmış şəraitlə tanış oldular, öz məharətini nümayiş etdirən çaparların çıxışlarına tamaşa etdilər.

Ağdama, ağdamlılara hər zaman isti münasibət, xüsusi qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi müdrik siyasəti bölgə sakinləri birmənalı şəkildə dəstəkləyirlər. Bu qayğı hər evdə, hər ailədə xoş ovqat yaradır, minnətdarlıqla qarşılanır. Ağdam Rayonu İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov bizimlə söhbətində dedi:

- Dövlət başçısının rayonumuza bu yaxınlarda gerçəkləşən səfəri yüksək əhvali-ruhiyyə doğurmuşdur. Ağdamda dövlət səviyyəsində həyata keçirilən möhtəşəm layihələr əyani şəkildə təsdiq edir ki, dövlət xalq üçün, öz vətəndaşının xoşbəxt və firavan yaşaması üçün çalışır. Prezident İlham Əliyevin qayğısı ilə bu cəbhə bölgəsi dinamik sosial-iqtisadi inkişaf yolundadır. Məqsədin aydınlığı, seçilən yolun düzgünlüyü bizi daha xoş günlərə qovuşduracaqdır. Əminik ki, torpaqlarımız işğaldan azad ediləcək. Buna hər bir ağdamlı bütün varlığı ilə inanır. Bu yenilməz inamın ünvanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla reallaşdırdığı müdrik siyasətdir. Bu siyasətin əsas istiqamətləri ölkənin dinamik sosial-iqtisadi inkişafını təmin etməklə yanaşı, güclü, qüdrətli ordu yaratmaqdır. Gerçəkləşən dövlət siyasətinin uğurudur ki, bu gün Azərbaycan ordusu regionun ən güclü ordusudur və işğal altındakı ərazilərimizi azad etməyə qadirdir. Bir əli əkində-biçində, təsərrüfat işlərində olan ağdamlılar bu müqəddəs torpaqları naminə döyüşməyə hər an hazırdırlar.

Vaqif Həsənov söhbət zamanı onu da vurğuladı ki, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq rayonun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün mövcud imkanlar, ehtiyat mənbələri təhlil edilmiş, cari və strateji hədəflər müəyyən olunmuşdur. Strateji hədəflər sırasında əhalinin məşğulluğunun daha da yaxşılaşdırılması, rayona xarici və yerli investisiyaların cəlb edilməsi, Ağdam üçün ənənəvi olan iqtisadi-təsərrüfat sahələrinin bərpası, əhalinin, xüsusilə gənclərin elmi, sosial və mədəni fəallığını artırmaqla fəal vətəndaş mövqeyinin formalaşdırılması məsələləri yer alır. Bu sırada rayona investisiya cəlbinə stimul verəcək Qarabağ Sənaye Məhəlləsinin yaradılması layihəsi xüsusilə diqqət çəkir. Artıq bu məqsədlə torpaq sahəsi ayrılmış, potensial biznes sahələri müəyyənləşdirilmişdir. İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə keçirilmiş görüşdə 6 sahibkar Qarabağ Sənaye Məhəlləsində müəssisə açmaq niyyətini bildirmişdir.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

Ölkə iqtisadiyyatı inkişaf etdikcə regionlarımızın siması da dəyişir. Kənd yollarının yenidən qurulması, yaşayış məntəqələrinin qazlaşdırılması və içməli su ilə təmin olunması, rabitə sisteminin müasirləşdirilməsi şəhərlə kənd arasında fərqi minimuma endirir. Regionlarda müasir tələblərə cavab verən yeni müəssisələrin açılması, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin sosial vəziyyətini daha da yaxşılaşdırır.




# İnfrastruktur layihələri uğurla icra olunur

İndi ölkədə elə bir bölgə yoxdur ki, regional inkişaf proqramlarının icrasından bəhrələnməsin.

Belə rayonlardan biri Göygöldür. Əsasən dağlıq və dağətəyi zonada yerləşən rayonda əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. İşgüzar və zəhmətsevər olan göygöllülər hər ili uğurlu göstəricilərlə yola salırlar. Cari ilin ötən dövrü ərzində əldə olunan nailiyyətlər deməyə əsas verir ki, onlar qazandıqları uğurları son hədd hesab etmirlər.

9 ayda rayon üzrə iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 131 milyon manatı keçmişdir. Rayonun iqtisadi gəliri artdıqca, abadlıq və yenidənqurma işləri də geniş vüsət alır. Məhz bunun nəticəsidir ki, ilin ötən dövrü ərzində istər rayon mərkəzində, istərsə də kənd və qəsəbələrdə başlanan quruculuq işləri davam etmişdir. Yol infrastrukturunda da yenidənqurma işləri aparılmışdır. Göygöl şəhərinin bir sıra küçələrinə asfalt örtük salınmasına başlanılmış, 3 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən 18 kilometrlik Çaylı, Pənahlılar və Dozular kəndlərində ara yollar abadlaşdırılmış, Göygöl-Mollacəlilli avtomobil yolunda, Qızılca, Yalqışlaq, Sərkar, Haçaqaya, Yeni Qızılca, Xaqani, Əlimədətli, Nadil və Zurnabad kəndlərində kənddaxili yollarda təmir işləri aparılmışdır.

Hesabat dövründə rayon üzrə kənd təsərrüfatında da yüksək göstəricilər əldə edilmişdir. Son məlumata görə, Göygöldə qaramalın sayı 206 min, davarların sayı 161 min başdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1157,4, süd istehsalı 38,8 ton, yumurta istehsalı 11 min ədəd artmışdır.

Rayonda heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün əvvəllər başlanan tədbirlər davam etdirilmişdir. 9 ayda hüquqi və fiziki şəxslərə dəyərinin 50 faizini ödəmək şərti ilə 7 baş cins mal-qara satılmış, rayonda cins mal-qaranın sayı 243 başa çatmış, 651 baş mal-qara süni yolla mayalandırılmış, 268 bala alınmışdır.

Bu il 1489 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 8280,95 hektar əkin və çoxillik əkmələrə görə dövlət büdcəsindən 612 min 410 manat subsidiya ödənilmişdir. Bundan başqa, 313 nəfərə 70 faiz güzəştlə 720 ton mineral gübrə satılmışdır.

Ötən dövr ərzində kənd təsərrüfatı təyinatlı torpaqlardan, xüsusilə də pay torpaqlarından təyinatı üzrə səmərəli istifadə olunmasına, torpaqların təyinatının dəyişdirilərək qanunsuz tikililər aparılmasının və digər məqsədlər üçün istifadə olunmasının qarşısının alınmasına nəzarət daha da gücləndirilmişdir.

Məlum olduğu kimi, Göygöl əkin suyu ilə az təmin olunan rayonlardandır. Buna görə də sudan daha səmərəli istifadə olunması daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə 126 subartezian quyusunda cari, 4-də əsaslı, eləcə də qapalı boru şəbəkəsində kanallarda təmir işləri aparılmış, sel sularının və daşqınların qarşısını almaq məqsədilə çay məcrasında təmizləmə işləri görülmüşdür. Qızılqaya, Hacıməlik qəsəbələrində Yeni Qızılca kəndində subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Hazırda Balçılı kəndində daha bir quyu qazılır.

Rayonda sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsidir ki, hüquqi şəxslərin sayı 578-ə çatmışdır. Cari ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən onlara 190 min manat güzəştli kredit verilmişdir ki, bunun da nəticəsində rayonda 578 yeni iş yeri açılmışdır. Sakinlərin məşğulluğunu təmin etmək və aztəminatlı ailələrin sosial müdafiəsini gücləndirmək məqsədilə ilin ötən dövrü ərzində 1120 nəfər işaxtaran rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış, onlardan 264 nəfəri münasib işlə təmin edilmişdir.

Həyata keçirilən infrastruktur layihələri nəticəsində əhalinin dayanıqlı elektrik enerjisi, qaz və su təminatı da qaydaya salınmışdır. Rayonun Pənahlılar, Üçtəpə, Xaqani, Əzgilli, Yeni Zod və Aşıqlı kəndlərində, eləcə də Göygöl şəhərinin yeni yaşayış massivində hava elektrik xətləri izolyasiyalı naqillərlə əvəz olunmuş, əlavə 16 kilometr uzunluğunda xətt çəkilmişdir. Təbii qazla təminata gəldikdə, bu il rayonun Şəhriyar və Kərəmli kəndlərinə yeni qaz xətləri çəkilmişdir. Hazırda Qızılca, Yeni Qızılca, Sərkar, Haçaqaya, Çaykənd kəndlərinə və Bəhrəmbəy qəsəbəsinə, qaz xətləri çəkilir. Mixaylovka, Qırıxlı və Quşqara kəndlərində isə abonentlərin qaz təminatının yaxşılaşdırılması üçün qaz xətləri böyük diametrli borularla əvəz edilmişdir.

Səhiyyə ocaqlarında aparılan yenidənqurma işləri də əhali tərəfindən razılıqla qarşılanır. Göygöl Rayon Mərkəzi Xəstəxanası və Qarabulaq kənd tibb məntəqəsi cari təmir edilmiş, səhiyyə ocaqları yeni tibbi avadanlıqlarla təmin olunmuşdur. Rayon əhalisinin ümumi profilaktik müayinəyə cəlb edilməsi də başa çatmışdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Xurma bol olsa da...

## Ağdaşlı fermerlər bu əvəzsiz nemətin satış qiymətindən razı deyillər



Ağdaş torpağı məhsuldarlığına görə seçilir. Buranın əlverişli iqlimi, bol suyu səpilən hər toxumu cücərdir. Ərsəyə gələn meyvələrin dadından doymaq olmur. Bu torpağın heyva və alçasından tutmuş düyüsünəcən adla deyilir. Ağdaşın xurmasının da yeri fərqlidir. Həm dadı, həm də keyfiyyəti ilə seçilən Ağdaş xurmasının istər yerli, istərsə də xarici bazarlarda alıcıları çoxdur.



Artıq xurma mövsümü sona çatır. Bəs bu il xurma istehsalçıları üçün necə keçib, bağlardan proqnozlaşdırılan həcmdə meyvə toplanıbmı, qiymətlər kəndli üçün əlverişlidirmi? Suallarımıza cavab tapmaq üçün Ağdaş rayonunun daha çox xurma əkilən Ağcayazı kəndində olduq. Bu kənd 380 təsərrüfatdan ibarətdir. Həmin təsərrüfatların təxminən 300-də xurma yetişdirilir. Onların arasında 0,20 hektarlığı da var, 10 hektarlığı da. Ümumilikdə isə xurma bağları 200 hektardan çoxdur.

Kənd sakini, fermer Şahmalı Kərimovun bağındayıq. Burada qaynar iş gedir. Bir yanda xurma dərilərək yeşiklərə yığılır, bir yanda da həmin yeşiklər yük maşınına doldurulurdu. Fermer deyir ki, 10 hektar xurma bağı var. Onun 6 hektarı tam məhsuldar, 4 hektarı cavan bağlardır: “Məhsuldarlıq keçən il də yaxşı olub. Lakin builki məhsul əvvəlki ildə olduğundan orta hesabla iki dəfəyə yaxın çoxdur. Amma qiymət keçən ildəkindən ucuzdur. Ötən il 9-10 kiloqramlıq yeşikləri 8-9 manata satmışdıq. Cari ildə isə qiymət orta hesabla 3 manatdır”.

Fermer deyir ki, qiymətin düşməsi mənfəətə təsir göstərir. Belə ki, xurma bağları davamlı qulluq tələb etdiyindən xərci də çoxdur: “Məhsul yığılıb təhvil verildikdən sonra növbəti yığım dövrünədək hər gün burada çalışanlara 30 manat ödəniş edilir. Budama, suvarma, gübrə verilməsi də pul tələb edən işlərdir. İşin həcmi artdıqda mütləq əlavə işçi qüvvəsi tələb edilir. Daha çox işçi isə yığım mövsümündə olur. Sentyabrın 15-dən başlayaraq yığım qurtaranadək gündəlik işçi sayı orta hesabla 15 nəfərə çatır”.

Anar Abbasov da kənd sakinidir. O, alıcı və istehsalçı arasında vasitəçilik edir. Dediyinə görə, bu il qiymətin aşağı düşməsinə təsir edən bir neçə amil var: “Əgər onlardan biri bu il keçən illə müqayisədə bağların daha çox məhsul verməsidirsə, digər amil məhsulun başlıca satış bazarı olan Rusiyada milli valyutanın ucuzlaşmasıdır. Üstəlik, gömrük rüsumunun artması da vəziyyətə təsirsiz ötüşməyib”.

Kənd sakini Ayaz Abdullayev də qiymətin aşağı olmasından şikayətlənir. Deyir ki, 2017-ci ildə xurmanın qiyməti münasib olduğundan bağ sahibləri bu il əvvəlki dövrlərlə müqayisədə ağaclara daha yaxşı qulluq göstərdilər. Budama, suvarma, ağacların dibinin yumşaldılması, üzvi gübrə ilə təminat yüksək səviyyədə aparıldı. Əvəzində məhsul ikiqat artdı, qiyməti isə ucuzlaşdı.

Ümumiyyətlə, təkcə xurma deyil, cari il bir sıra kənd təsərrüfatı məhsullarının satışında fermerlər bu cür problemlə üzləşiblər. Xüsusən sarımsaq əkənlər daha çox ziyana düşüblər. Tonlarla sarımsaq insanların əlində qalıb. Hesab edirik ki, bu qəbildən olan problemlər tezliklə həllini tapmalı və kəndli əkdiyi məhsulun münasib qiymətə satışı sarıdan çətinlik yaşamamalıdır. Bu baxımdan “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin üzərinə böyük vəzifələr düşür.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# Dodaqlarda ağıya çevrilən şikəstə

## Gülablıdan dünyaya yayılan səda - "Nənə qızlar"

*Könlüm keçir Qarabağdan.*
*Gah o dağdan, gah bu dağdan,*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi...*

Düz iyirmi beş ildir ki, bir ağbirçək, bir el anası ağı deyir. Yurdundan ayrı düşmüş elinə, başdaşına göz yaşından cığır düşmüş şəhidlərinə, gözü yolda qalan əsir övladlarına, səsləri hələ də qulaqlarda cingildəyən süngülənmiş körpələrinə bayatı çəkir, layla çalır...

1992-ci ilin bir məşum günü al qırmızı örtüyə bürünmüş üç şəhidi, arzu-kamı gözlərində qalmış üç igidi qara torpağa tapşırmağın acısı dodağındakı zümzüməyə birdəfəlik son qoyur...
Bir zamanlar mahnıya, təsnifə köklənmiş məlahətli səsi ilə ürəkləri sevindirən bu ana "Mən ağlamayım, bəs kim ağlasın?!" - deyə ərşə dirənən fəryadı ilə ürəkləri dağlayır...
Və elə həmin o məşum gündən təkcə Ağdamın Gülablı kəndinin sakinləri deyil, bütün Azərbaycan Xavər Nuriyevanın şən, şaqraq səsinə həsrət qalır...
Məşhur "Nənə qızlar" ansamblının solisti Xavər Nuriyevadan danışırıq...



### Elə bir avazla oxuyurdu ki...

1938-ci ildə füsunkar bir diyar, Ağdam rayonunun Gülablı kəndində anadan olan Xavər Nuriyevanın uşaqlığı Böyük Vətən müharibəsi illərinə düşür. Qardaşı bu müharibədə həlak olur, atası isə dərddən vaxtsız köçür bu dünyadan. Anası və bir bacısı ilə yalnız qalan balaca qızcığazın həyatı çətinliklərlə keçsə də, yeddi yaşında Abdal kənd məktəbinə gedir və hələ o zamanlardan öz istedadı ilə digər şagirdlərdən fərqlənir. Məktəbdə hazırlanan kiçik tamaşalarda, konsertlərdə həvəslə iştirak edir.

Müəllimi Sərvaz Nəbiyevin tarda müşayiəti ilə "Sona bülbüllər", "Yar gəldi, yar gəldi", "Kəndimiz" kimi mahnıları gözəl ifa edirdi, amma "Qarabağ şikəstəsi"ni elə bir yanıqlı avazla oxuyurdu ki, dağdaş dilə gəlirdi...

Balaca Xavər yüzdən artıq mahnını Gülablının səfalı bulaqlarında, yaşıl çəmənlərində, uca dağlarının zirvəsində oxuyur, səsi şəlalələr kimi çağlayırdı...

### Dəfələrlə təltif olunur

Xavər Nuriyevanın ecazkar səsini ilk dəfə on iki yaşı olanda Ağdam Şəhər Mədəniyyət Evinin müdiri Manaf Quliyev kəşf edir. Elə həmin vaxtdan o, Ağdam şəhərində keçirilən bütün mədəniyyət tədbirlərinin əsas iştirakçılarından birinə çevrilir. Ağdam Mədəniyyət Evi Xalq çalğı alətləri ansamblının kollektivi ilə respublika miqyasında keçirilən məhsul bayramlarında fəaliyyətinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunur. 1955-ci ildə Bakıda keçirilən Ümumdünya Mahnı Festivalında birinci yerə çıxırlar. 1957-ci ildə II Ümundünya Gənclər Festivalı keçirilir. Həmin festivalda uğurlu çıxışına görə ikinci dərəcəli diplom və medala layiq görülür.

İllər ötür, 1958-ci ildə Xavər xanım Məhi adlı həmkəndlisi ilə ailə həyatı qurur, gəlin köçür, üç oğul, bir qız anası olur.



Foto Ağaəli MƏMMƏDOVundur

### "Nənə qızlar"ın sədası sərhədləri aşır

1983-cü ildə Gülablı kənd Mədəniyyət evinin müdiri ustad Aşıq Xaspolad Mirzəliyevə rayondan tapşırıq gəlir ki, bütün mədəniyyət evlərinin nəzdində folklor ansamblları təşkil olunsun. Xaspolad kişi də bu işi Xavər Nuriyevaya həvalə edir və o kənddə səsi, istedadı, qabiliyyəti olan on yeddi qızı başına yığıb məşhur "Nənə qızlar" folklor ansamblını yaradır. Uzun illər səhnədə, xalqımızın keçmişini, məişətini, adət-ənənəsini öz ifalarında yaşadan paytaxt Bakıda, respublikada və digər ölkələrdə elə bir tədbir yox idi ki, "Nənə qızlar" ansamblı orada iştirak etməsin. Xavər Nuriyeva "Nənə qızlar" ansamblını elə yaratmışdı ki, onların hər çıxışı tamaşaçılar tərəfindən böyük maraqla qarşılanırdı. Belə çıxışların ardı-arası kəsilmirdi. Ağdamda Natəvan qızlar bayramı, Xarı bülbül festivalı, Bahar bayramı və digər dövlət səviyyəli tədbirlərdə xüsusi çıxışları olan ansamblın fəaliyyəti Azərbaycan televiziyası ilə də dəfələrlə nümayiş etdirilmişdi.

Ansamblın qızları yetkinlik yaşına çatdıqca bir-bir ailə qurub gedir, "Xavər nənə" gedənləri yeniləri ilə əvəz edirdi. "Nənə qızlar" folklor ansamblı istedadını təkcə Azərbaycanda deyil, bütün keçmiş Sovet İttifaqında nümayiş etdirirdi.

### Zeynəb Xanlarova, Sara Qədimova, Xavər Nuriyeva...

1987-ci ildə ansambl Moskvada M.Qorki adına Mədəniyyət Evində keçirilən "Qarabağ toyu" adlı kompozisiyaya dəvət alır. Ona bu toyda ana rolunu ifa etmək tapşırılır. Belə ki, o, P.Bülbüloğlu, M.Maqomayev, Z.Xanlarova kimi müğənnilərlə birgə konsertdə "Qarabağ şikəstəsi" ilə çıxış edir. Festifalda "Qarabağ şikəstəsi"ni müvəffəqiyyətlə ifa edən "Nənə qızlar" ansamblının "nənəsi" Xavər Nuriyeva xüsusi medalla təltif olunur.

Daha sonra o, Moskvada keçirilən "Azərbaycan günləri" festivalında iştirak edir. Bu festivalda "nənə" ilə birgə 17 qızın hər biri ayrı-ayrılıqda II dərəcəli mükafata layiq görülür. Bu möhtəşəm festivaldan bir ay sonra Respublika sarayında Xavər Nuriyeva "Nənə qızlar" ansamblı ilə birlikdə respublikanın tanınmış müğənniləri Zeynəb Xanlarova, Sara Qədimova, Əlibaba Məmmədov, Canəli Əkbərov və başqa tanınmış müğənnilərlə bir yerdə çıxış edir...

### Ürəyi sığmır buralara...

Və mahnılı-musiqili, çal-çağırlı, xoşbəxtlik dolu günlərin ömrü 1993-cü ilə qədər davam edir... Qarabağın qara günləri başlanır... Ağdamın Gülablı kəndi 1992-ci il sentyabrın 4-də erməni işğalçıları tərəfindən zəbt olunur...

Doğma kənd işğal olunandan sonra ansamblın qızlarının hərəsi bir tərəfə dağılır... "Nənə qızlar"ın "nənə"si isə Bakı şəhərinə, Mədəni-Maarif Texnikumunun yataqxanasına sığınmalı olur, amma ürəyi heç zaman sığmır buralara...

Doğma-el obasından, yurdundan ayrılıq həsrəti yaman sarsıdır onu...

50 ildən artıq mədəniyyətimizin inkişafına xidmət göstərən, yeddi dəfə müxtəlif fəxri fərmanlarla təltif olunan Xavər Nuriyevanın sinəsi o illərin şirin xatirələri ilə aşıb-daşır və elə bəlkə də bu xatirələrdir onu bir az da olsa ovudan...

"Dərdim vətən həsrətidir, dərmanı isə o yerlərə qovuşmaq, gül ətirli Gülablı suyu içib, dağlara qalxmaq, dərindən nəfəs almaqdır. İnanın, mən o yerlərdən ayrı düşəndən doyunca nəfəs də ala bilmirəm. O yerlərin daşına da, koluna da qurbanam. Gülablı kəndində əsən behişt küləyi mənim nəfəsim idi", - deyir Xavər nənə.

Amma bir sual var ki, heç zaman ona cavab vermir... Soruşanda ki nə vaxtsa Gülablı kəndinə qayıdandan sonra yenə "Nənə qızlar" ansamblına "nənəlik" edərsinizmi? Gözləri bir nöqtəyə zillənir və heç bir şey demir, sadəcə susur...

Bəlkə də ürəyində hə deyə cavab verir, yaxud da...

Elə bu susqunluğunun altında o qədər bəlkələr yatır ki...

### Nə bilmək olar...

Daha Gülablının "Nənə qızlar"ı yoxdur...

Bir zamanlar Qarabağ adlı cənnət diyarın Abdal-Gülablı yurdunun dağlar qoynunda "Nənə qızlar" folklor ansamblı vardı. O ansamblın deyib-gülən, çox şən, qıvraq bir nənəsi var idi. Şikəstəsinin səsi dağlarda əks-səda verir, bulaq kimi qaynayır, duyanları valeh edirdi...

Bu gün isə nə "Nənə qızlar", nə də onun dodağı zümzüməli Xavər Nuriyevası var...

Bu gün ürəyi vətən dağlı, dilində şəhid övladların ağısı, qətl edilən körpələrə layla deyən bir ağbirçək nənə var...

*Ceyran, cüyür mələr orda,*
*Elim düşüb yaman dərdə,*
*Qayıdaram bir də yurda,*
*Görən, o yurd yerindəmi?*

**Almara NƏBİYEVA,**
**filologiya üzrə fəlsəfə doktoru**

---

3 dekabr Beynəlxalq Əlillər Günüdür

# Həyata dönüş

Əvvəli 1-ci səh.

Atası Malik Vəliyev deyir ki, Əlidə olan bu enerjini gördükdə özünü bu dünyanın xoşbəxti hiss edir, onun daha da yaxşı nailiyyətlər əldə etməsi üçün əlindən gələn bütün dəstəyi, köməyi göstərir. Qarşıdakı hədəf 2024-cü üldə Fransada keçiriləcək Paralimpiya Oyunlarında iştirak edib ən yüksək zirvəni fəth etməkdir...



### Dünyada təxminən bir milyard əlil yaşayır

3 dekabr bütün dünyada Beynəlxalq Əlillər Günü kimi qeyd edilir. Bu barədə 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Onun hədəfi ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir.

Statistikaya əsasən, hazırda dünyada təxminən bir milyard əlil yaşayır və onlar cəmiyyət həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər. BMT-nin məlumatına əsasən, onlar dünya əhalisinin ən kasıb hissəsini təşkil edir və təhsil, səhiyyə, məşğulluq sahələrində, eləcə də sosial və hüquqi yardım almaq baxımından digər cəmiyyət üzvləri ilə eyni imkana malik deyillər.

2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tamhüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür.

1996-cı ilin fevral ayının 9-u ölkəmizin idman salnaməsinə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin yaranma tarixi kimi daxil olub. İlk dəfə komitə 1996-cı ildə Atlantada keçirilən X Yay Paralimpiya Oyunlarında cəmi iki idman növü üzrə iki idmançı ilə iştirak edib. 2008-ci ildə isə ulu öndər Heydər Əliyevin tapşırığı ilə Sumqayıt şəhərində inşa edilmiş Paralimpiya İdman Kompleksinin açılış mərasimi keçirilib. Bütün bunlar ölkəmizin idman həyatında böyük müsbət dəyişikliklərə və qələbələrə təkan verib.

Elə bu gün həmsöhbət olduğumuz idmançılar da Milli Paralimpiya Komitəsinin üzvləridir və hər biri nail olduqları uğurlardan danışır, həm həyatda, həm idmanda...





### "Qoy həyatda elə mənim çətinliyim də bu olsun..."

"Protezdən sadəcə görünüş üçün istifadə edirəm ki, kənardan bilməsinlər ki, qolumda problem var. Ümumiyyətlə isə protezi xoşlamıram. Özümü onsuz tam rahat hiss edirəm və bütün işlərimi görürəm. Sadəcə bir çətinliyim var: o da ip bağlamaqla əlaqədardır... Amma qoy elə həyatda mənim çətinliyim də ayaqqabı ipi bağlaya bilməməyim olsun..."

27 yaşlı parataekvondoçu Röyalə Fətəliyeva ana bətnində olarkən sol qolu dirsəkdən aşağı inkişafdan qalır və o, dünyaya fiziki qüsurla gəlir. İllərlə bu, onda ciddi psixoloji sarsıntılara səbəb olur, doğmalarına, valideynlərinə qarşı aqressiya yaradır, həddindən artıq kompleks yaşayır.

Hətta 18 yaşına kimi əkizinin arxasında gizlənirmiş ki, heç kim onun əlini görməsin: "Atam deyirdi ki, bu dünyadan köçəndən sonra yalnız səndən nigaran qalacam, Röyalə... Anama, bacıma, yaxınlarımıza tapşırırdı məni həmişə..."

Amma çox sonralar, idmana gəldikdən sonra dərk edir ki, indiyə qədərki bütün fikirlərində səhv edir və o, heç kimdən əskik deyil...

Orta məktəbi bitirdikdən sonra ali məktəbə sənəd versə də, imtahanlardan keçə bilmir və beləliklə də sonralar həyatında dönüş yaradacaq idmanla tanışlığı başlayır...

### Ad gününə "qızıl" hədiyyə

18 yaşında Ramana Peşə Reabilitasiya Mərkəzinə dəvət olunur və orada məlumat alır ki, taekvondo idman növü üzrə qız axtarırlar: "Ümumiyyətlə, bu idman növü çətin olduğu üçün burada qızların sayı azdır. Deməkolar ki, indi də kritik saydadır, iki qızıq. Mən çətinlikdən qorxmadım və bu idman növündə uğur qazanmağa çalışdım. İlk yarışım 2011-ci ildə Rusiyanın paytaxtı Moskvada keçirilən dünya çempionatında oldu. O günü heç zaman unutmaram. İlk yarışım olduğu üçün çox həyəcanlı idim və ayaq üstə belə dura bilmirdim və bu yarışda iştirak etmək üçün 20 gün ərzində 59 kiloqramdan 49 kiloqrama düşmüşdüm. Bütün bunlara baxmayaraq, çempionatda bürünc medal qazanmağı bacardım".

Daha sonra Röyalə Fətəliyeva 2012-ci ildə Arubada keçirilən dünya çempionatında 2-ci yeri tutur. 2013-cü ildə isə idman karyerasının zirvəsinə qalxır və İsveçrədə keçirilən dünya çempionatında çempion adını qazanaraq qızıl medala layiq görülür və bu uğurunu öz ad gününə hədiyyə etdiyini deyir. 2015-ci ildə Moldovada keçirilən Avropa çempionatında gümüş medal qazanır. Hələlik son uğuru 2016-cı ildə Polşada keçirilən Avropa çempionatında ikinci yer tutması və Portuqaliyada keçirilən Dünya Oyunlarında bürünc medal qazanmasıdır.

Röyalə yorulmadan səylə çalışır və qarşıdakı hədəfi Tokio Paralimpiadası 2020-də çempion olmaqdır: "2019-cu ilin fevralın 26-sı Türkiyənin Antalya şəhərində dünya çempionatı keçiriləcək. Məqsədim odur ki, orada qızıl medal qazanaraq reytinq cədvəlində 4-lüyə düşüm və olimpiadada iştirak edib çempion olum".

### "Əngəlləri aşdıqca özümü yenidən kəşf edirəm"

"Çətin sınaqları çox sevirəm. Əngəlləri aşdıqca özümü yenidən kəşf edirəm. Qarşıma böyük məqsədlər qoymuşam. Bütün hədəflərimə çatacam, sübut edəcəm ki, insan əzmi hər şeyə qadirdir. Atıcılıqda təkcə olimpiya çempionluğunu yox, dünya rekordlarını da hədəfləmişəm. Qarşıda özüm üçün rekord təyin etmişəm ki, tarixdə qalım..."

Bu fikirləri isə Kamran Zeynalov deyir. 1992-ci ildə Sabirabad rayonunda, uşaq serebral iflici ilə dünyaya göz açan Kamran dörd yaşında olarkən ailəsi ilə Bakıya köçüb. Kamranın müalicə xərclərini qarşılamaq üçün ailə paytaxtdakı mənzili sataraq Sumqayıtda məskunlaşıb. Kamran ev şəraitində orta təhsil alıb. Dərslərini yaxşı oxuyub, cəbr üzrə respublika miqyaslı yarışlarda nailiyyətlər də qazanıb, amma nədənsə ali məktəbə üz tutmayıb...

İdmanın bir çox növünə həvəsi olsa da, atıcılığa elə də marağı olmur, amma sonra bu idman növü diqqətini cəlb edir. Atıcılıqla məşğul olduqca, onun dərinliklərinə yiyələndikcə bu idman növünə vurulur və düşünür ki, bu yolda həyatını davam etdirsin. Beləliklə, Sumqayıt Paralimpiya Kompleksində atıcılıq üzrə çalışmalara başlayır: "Atıcılıq çox çətindir və bu idman növündə də elə məni cəlb edən bu oldu. Məsələn, karatedə, cüdoda, kikboksinqdə qarşıdakı rəqibini məğlub etmək üçün çalışırsan. Atıcılıqda isə özün-özünlə mübarizə aparırsan. Bax bu, olduqca çətindir və hər adamın əsəbi tab gətirməz. Çünki bu idman növünün əsas şərti əsəblərini idarə etməyi bacarmaqdır".

### Hədəfi dəqiq nişan alır...

Kamran Zeynalov 2010-cu ilin mart ayında keçirilən sınaq atışlarında 537 xal toplayır. Bunun sayəsində o, Türkiyənin Antalya şəhərində keçirilən dünya kuboku yarışında iştirak edə bilir. 10 metr məsafəyə pnevmatik tapançadan atəşdə 554 xalla təsnifatda altıncı olan Kamran final mərhələsində nəticəsini daha da yaxşılaşdırır və gümüş medal qazanır.

Elə həmin il Almaniyada baş tutan yarışda uğursuz çıxış etsə də, bir həftə sonra Fransada normativi yerinə yetirərək, Xorvatiyada təşkil olunan dünya çempionatına lisenziya qazanır. 10 metr məsafəyə pnevmatik tapançadan atəş açmaqda şəxsi göstəricisindən xeyli az - 547 xal toplayaraq 18-ci yerlə kifayətlənir.

Rio Olimpiadasına Türkiyədə keçirilən dünya kuboku yarışı ilə start verir. Burada uğursuz çıxış edən Kamran sonrakı yarışlarda nəticəsini yaxşılaşdırır. 2014-cü ildə isə karyerasının ən böyük uğurunu qazanır. İngiltərədə təşkil olunan dünya kubokunda qızıl medal qazanır. Növbəti il isə İngiltərədən gümüş medalla qayıdır.

2015-ci ilin sonlarından etibarən uzun müddət məşqlərə qatılmır. Psixoloji cəhətdən özünü toplaya bilmir, üstəlik, səhhətində ciddi problemlər yaranır. İl yarım davam edən fasiləyə baxmayaraq, dönüşü kifayət qədər uğurlu alınır. Cari ildə Cənubi Koreyada keçirilən dünya çempionatında final mərhələsinə yüksələn Zeynalov yekunda səkkizinci nəticə göstərir. Fransanın evsahibliyi etdiyi dünya kubokunda isə beşinci olur. Qarşıda Kamranı daha üç lisenziya yarışı gözləyir.

Hədəf 2020-ci il Tokio Olimpiadasında iştirak edərək çempion olmaqdır...

### "İstəmirdim digər insanlardan fərqlənəm..."

"Valideynlərim hər zaman yanımda olub, bütün işlərimdə mənə dəstək veriblər. Yorulanda, ruhdan düşəndə məni hər şeyi bacaracağıma inandırıblar, özgüvənimi artırıblar. Elə buna görə həm idmanda, həm də həyatda hər bir insanın arzulayacağı nailiyyətləri əldə etmişəm..."

Milli Paralimpiya Komitəsinin yüngül paratletika üzrə yığmasının üzvü Samir Nəbiyev 2-ci qrup əlildir. Uşaq vaxtı vurulan iynə nəticəsində ayağına infeksiya keçən Samirin dizində çirk əmələ gəlir. Həm Azərbaycanda, həm də xaricdə dəfələrlə əməliyyat olunur və bu əməliyyatlar sayəsində yerimə qabiliyyəti nisbətən düzəlir: "Hələ uşaqlıqdan idmana böyük həvəsim var idi. Həm də bu sayədə öz ayağım üstə durmaq istəyirdim. İstəmirdim ki, digər insanlardan fərqlənim, kimsə mənə kənardan baxıb desin ki, yazıqdır... Və Allah arzularıma çatmağı mənə nəsib etdi..."

Yaşadığı çətinliklərə baxmayaraq, Samir təhsilini də axsatmır və 2004-cü ildə Azərbaycan Tibb Universitetinə qəbul olunaraq ultrasəs müayinəsi üzrə ixtisas alır. Amma idmana olan marağı onu daha çox bu sahəyə yönəldir...

Ötən il isə həyatında daha bir əlamətdar gün olur. Sevib-seçdiyi xanımla ailə qurur.

### Zəfər pillələri...

2010-cu ildən Milli Paralimpiya Komitəsinin yüngül atletika üzrə idman növünə başlayan Samir Nəbiyev sübut edir ki, seçimində səhv etməyib. Ardıcıl qazanılan qələbələr, uğurlar ondakı özgüvəni, əminliyi daha da möhkəmləndirir. Lövhə atma üzrə 2011-ci ildə Dünya Oyunlarının qalibi olaraq qızıl medal qazanır. London Paralimpiadasında 5-ci yerə çıxır. 2013-cü ildə Fransada keçirilən dünya çempionatında gümüş medal qazanır. 2016-cı ildə Braziliyada keçirilən paralimpiadada nüvəitələmə üzrə yarışda finala bir addım qalmış gümüş medalla kifayətlənməli olur.



2017-ci ildə Dubayda IX Fəza Beynəlxalq Qran-prisində lövhə atma üzrə Avropa rekordunu yeniləyərək qızıl medal qazanır. Həmçinin nüvəitələmədə də fəxri kürsünün ən yüksək pilləsinə qalxır. 2018-ci ildə isə Berlində keçirilən Avropa çempionatında nüvəitələmə üzrə ikinci yerə layiq görülür.

### Diqqət və qayğının təzahürü

Samir Nəbiyev vurğulayır ki, bütün bu uğurların qazanılmasında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın idmançılara göstərdiyi böyük diqqət və qayğının müstəsna rolu var: "2012-ci ildə London, 2016-cı ildə isə Rio Olimpiadasına idmançıların yolasalınma mərasimində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı, idmançılarla görüşməsi, onlara uğurlar arzulaması bizə əlavə bir motivasiya verdi. Həmçinin Bakıda keçirilən İslam Oyunlarında qələbə qazanan idmançılarla Prezident və Mehriban xanım Əliyevanın görüşməsi, xatirə şəkli çəkdirməsi inanılmaz qürurverici idi".

İndi Samirin hazırlıqları Tokio Olimpiadasınadır: "İki olimpiadadır ki, finalda uduzuram, İnşallah, Tokio Olimpiadasında fəxri kürsünün üst pilləsinə zirvəyə qalxacam..."

### İnsan istəyəndə...

İnsan enerjisi bitib-tükənməz, sonsuzdur və heç bir əngəl tanımır... Sadəcə olaraq o, gücündən, əzmindən lazımi formada istifadə etmir, yaxud da bunu bacarmır...

Unudur ki, insan yalnız fiziki varlıq deyil...

O, həyata keçirdiyi hansısa bir işi əli, ayağı, gözü olduğu üçün deyil, yer üzünün ali məxluqu olduğu üçün həyata keçirə bilir... Zahirdə görünən bu əl-ayaq, qulaq, göz, dil isə sadəcə bir vasitədir...

Əlləri olmayan birinin mükəmməl rəsm çəkdiyinin, eşitməyən birinin necə incə melodiyalar bəstələdiyinin, gözləri görməyən birinin dünyanı daha rəngli təsvir etdiyinin və daha neçə "möcüzə" adlandırdığımız hadisələrin şahidiyik...

Əgər insan istəyərsə, barmağını belə tərpətmədən fikri, əzmi, iradəsi sayəsində Yer kürəsini məhvərindən oynadar, kainata belə hökm edər...

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

# Morinari VATANABE: "Mehriban Əliyeva təkcə Azərbaycanda yox, dünyada da gimnastikanın inkişafına töhfə verir"

"Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti Mehriban Əliyeva təkcə Azərbaycanda yox, dünyada da gimnastikanın inkişafına mühüm töhfə verir".



AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, bu sözləri Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabe bu qurumun İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasında deyib.

M.Vatanabe bildirib ki, AGF çoxlu sayda yarış və görüşlərə yüksək səviyyədə evsahibliyi edib və hər kəs Bakıya məmnuniyyətlə gəlir. Gimnastika Azərbaycanda xeyli inkişaf edib və biz hər dəfə Bakıya gələndə bunun şahidi oluruq.

Azərbaycanın istənilən yarışa yüksək səviyyədə evsahibliyi etmək iqtidarında olduğunu vurğulayan FIG prezidenti xatırladıb ki, 2019-cu ildə Bakıda bədii gimnastika üzrə Avropa çempionatı keçiriləcək.

M.Vatanabe qeyd edib ki, təkcə gimnastika yox, bütün idman növləri baxımlı olmalıdır. FIG-nin əsas məqsədi insanların gimnastikanı daha yaxşı anlaması və bu idmana maraqla baxmasıdır.

Federasiyaya yeni üzvlərin qəbul olunması barədə suala cavabında FIG prezidenti vurğulayıb ki, 192 ölkədən 147-si FIG-nin üzvüdür. Gündəlikdə yeni üzvlərin qəbulu məsələsi də var.

Parkurun yarışlar sırasına daxil edilməsi məsələsini şərh edən M.Vatanabe deyib ki, bu məsələ gündəlikdə yer alıb. O, yaxın zamanlarda parkurun idman növləri sırasına salınacağına ümid etdiyini bildirib.

Dekabrın 2-3-də Bakı ilk dəfə Beynəlxalq Gimnastika Federasiyasının Konqresinə evsahibliyi edəcək.

# Moskvada MDB İqtisadi Şurasının iclası keçiriləcək

Dekabrın 7-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) İqtisadi Şurasının iclası keçiriləcək. MDB İcraiyyə Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Moskvada Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurasının 80-ci iclası keçiriləcək.

İclasın gündəliyinə MDB-yə üzv dövlətlərin iqtisadi sahədə qarşılıqlı fəaliyyətinə dair məsələlərin geniş kompleksi daxil edilib. Əsas müzakirə mövzuları 2020-ci ilədək dövrdə MDB ölkələrinin innovasiyalar üzrə əməkdaşlığının Dövlətlərarası Proqramı çərçivəsində məsələlər, rəqəmsal iqtisadiyyatın inkişafı şəraitində Birlik ölkələrində rəqabət siyasətinin formalaşması olacaq.

Tədbirdə, həmçinin nəqliyyat sahəsində qarşılıqlı fəaliyyət məsələləri, MDB Hökumət Başçıları Şurasının dəmir yolu nəqliyyatında razılaşdırılmış tarif siyasətinin tətbiqi haqda Konsepsiyaya və 2018-ci fraxt ili üçün MDB ölkələrinin dəmir yollarında tarif siyasətinə dair qərarlarının yerinə yetirilməsi vəziyyəti müzakirə ediləcək. 2018-ci ildə Tacikistan Respublikasının sədrliyi dövründə iqtisadi məsələlərin gündəliyinə də yekun vurulacaq.

Bundan başqa, iclas iştirakçıları digər maliyyə və təşkilati məsələləri də nəzərdən keçirəcəklər.

# Uilyam QİL: "Naxçıvan şəhərindəki inkişaf və buradakı xidmətlərin səviyyəsi məndə xoş təəssürat yaratdı"

"Azərbaycanın dilbər guşələrindən olan Naxçıvan Muxtar Respublikasına ilk səfərimdən çox məmnunam. Muxtar respublikada səfərdə olarkən bir sıra yüksək səviyyəli görüşlər keçirdim. Görüşlərdə bizim ortaq prioritetlərimiz olan energetika və iqtisadi məsələlərlə bağlı çox faydalı müzakirələr apardıq".



Bu sözləri AZƏRTAC-a Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Qil deyib.

"Səfərimiz Beynəlxalq Əlillər Günü ərəfəsinə təsadüf edir. Biz səfirlik olaraq fəxr edirik ki, əlilliyi olan və olmayan aktyorlardan ibarət "ƏSA" teatrının kollektivi tərəfindən hazırlanan "Adamlar və siçanlar" tamaşasının Naxçıvanda nümayişinə kömək göstərə bildik", - deyən Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Qil qeyd edib ki, Naxçıvanda fiziki məhdudiyyəti olan insanların sosial şəraitinin yaxşılaşdırılması və təhsili istiqamətində görülən işlərlə yaxından tanış olub. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində və Naxçıvan Uşaq Bərpa Mərkəzində olarkən gördüyü yüksək şərait onda xoş təəssüratlar yaradıb.

Uilyam Qil deyib: "Səfər çərçivəsində Naxçıvan şəhərindəki tarixi və mədəni abidələrlə də yaxından tanış olduq. Bütün bu yerlər Naxçıvan üçün önəmli, çox dəyərli yerlərdir. Naxçıvana səfər etməyə və həmin yerlərlə tanış olmağa dəyər. Şəhərin gözəlliyi, buradakı inkişaf və xidmətlərin səviyyəsi məndə çox xoş təəssüratlar yaratdı. Naxçıvan şəhərindəki yaşıllıqlar, parklar onun gözəlliyinə gözəllik qatır. Mən Naxçıvana yenidən səfər edib, bura ilə daha yaxından tanış olmağı həvəslə və səbirsizliklə gözləyirəm".

Diplomat diqqətə, xoş və səmimi münasibətə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

# Vətəndaşlarla görüş keçirilib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.

AZƏRTAC xəbər verir ki, dekabrın 1-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Sumqayıt şəhərində vətəndaşları qəbul edib.

Qəbulda Sumqayıt şəhəri, Abşeron, Xızı, Siyəzən və Qubadlı rayonlarının sakinlərinin, eləcə də bu bölgədə məskunlaşan məcburi köçkünlərin yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən malların idxal və ixracı, bununla əlaqədar sənədləşmə qaydaları, gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

DGK sədri Səfər Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib.

Həsən Məmmədov - 80

# Şöhrətin dəyişə bilmədiyi sənətkar

Aktyor olmaq arzusu ilə gəldiyi bu şəhərdə kino onun üçün "Böyük dayaq" oldu. Gənc yaşlarında "Arşın mal alan" deyib onun küçələrində öz sevgisini axtardı. Həyat qayğılarıyla, sənət isə gah zəhməti, gah da şöhrəti ilə hərdən Həsən Məmmədovu "İstintaq"a da çəkdi, "Zirvə"yə yüksəltdi. Ancaq bir gün tarixin "Səmt küləyi" dəyişdi... 1990-cı illərdə "Bakıda küləklər əsir"di. Bu dəfə "Arxadan vurulan zərbə"də dövranın əli vardı... Həsən Məmmədov dünyaya "Qəm pəncərəsi"ndən baxırdı...











## Uğurlu yolun başlanğıcı

O, 1938-ci il noyabrın 22-də Salyan rayonunda dünyaya göz açmışdı. Əbdülhəsən adı verilən bu körpə sonralar Azərbaycan kinosunun ən parlaq simalarından biri oldu. Tamaşaçıları onu Həsən Məmmədov kimi tanıdılar, sevdilər...

Atası Ağaməmməd kişi fəhlə idi. Əlləri qabarlı, zəhmətkeş ata övladının da özü kimi əziyyət çəkməsini istəmirdi. Salyan rayonundakı 2 saylı orta məktəbdə oxuyan mülayim, ağırtəbiətli oğlunun sözündən çıxmayacağını da bilirdi. Elə bu xəyalla, bu ümidlə də onu 1956-cı ildə ali təhsil alıb müəllim olması üçün Bakıya yolladı.

Həsən Məmmədov atasının arzusunu yerinə yetirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fizika-riyaziyyat fakültəsinə daxil oldu. Amma... xəyallarına yad olan bir ali məktəbdə heç isinişə bilmədiyi fizika, riyaziyyat fənlərini oxusa da, çoxdan könlünü verdiyi aktyorluq sevdasını unuda bilmədi. Nəhayət, ikinci kursda özünü bu məcburiyyətdən xilas edərək təhsilini yarımçıq qoydu. Artıq dram dərnəklərində təcrübə qazandığı üçün ürəkli döydü teatrların qapılarını. Bir müddət müxtəlif teatrların yardım heyətində aktyorluq etdi. Universitetdə təhsilini yarımçıq qoyduğu üçün onu qınayanlar da, tənə edənlər də oldu. Belə olacağını bilirdi. Qətiyyətlə yoluna davam edirdi.

1958-ci ildə sənədlərini Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyorluğu fakültəsinə verdi. Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov kimi görkəmli sənətkarların qarşısında imtahan verdi.

Tələbə adını qazananların siyahısında adını görəndə sanki dünyanı ona bağışladılar. Məhərrəm Haşımovun kursunda oxumağa başladı. Tələbə yoldaşları arasında sonradan Azərbaycanın teatr və kino sənətində şöhrət qazanacaq Eldəniz Zeynalov, Hacı Murad Yagizarov, Elmira Şabanova, Rafiq Əzimov, Tofiq İsmayılov da vardı. Həsən Məmmədov institutun fəal tələbələrindən sayılmırdı. Bu sakit, bir az da qapalı gənc birinci kursun sonunda göstərdiyi etüdlə müəllimi Məhərrəm Haşımovu və tələbə yoldaşlarını təəccübləndirməklə bərabər, parlaq istedadı olduğuna inandırdı.

Tələbəlik illərində Akademik Milli Dram Teatrında kütləvi səhnələrə çıxırdı.

Azərbaycan radiosunun elan etdiyi müsabiqədən də keçdi. 1960-1961-ci illərdə fasilələrlə radioda diktor işlədi.

1962-ci ildə institutu bitirdi. İstedadını nəzərə alaraq onu təyinatla Akademik Milli Dram Teatrına göndərdilər. Bu teatrda Həsən Məmmədov Azərbaycan və dünya dramaturqlarının əsərləri əsasında hazırlanmış bir-birindən maraqlı tamaşalarda rol aldı.

## Qəfil gələn məşhurluq

1962-ci ildə "Böyük dayaq" filminin çəkilişlərinə dəvət olundu. Gənc aktyorun üzərinə çox böyük məsuliyyət düşmüşdü. Azərbaycan kino sənətinin Ələsgər Ələkbərov, Nəsibə Zeynalova, Məmmədrza Şeyxzamanov və başqa məşhur sənətkarları ilə birlikdə çalışmaq Həsən Məmmədov üçün həyəcanlı olduğu qədər də sevindirici idi. Ekranda canlandırdığı Qaraş Həsən Məmmədovun özü kimi gəncdir, həyatın bərkinə-boşuna düşməmişdi. Ancaq filmin sonu hər ikisi üçün çox sevincli oldu. "Böyük dayaq"ın Qaraşı öz sevdiyinə qovuşdu. Həsən Məmmədov isə bu uğurlu işi ilə böyük kino sənətinin parlaq aktyorları sırasında öz yerini təsdiq etdi.

"Böyük dayaq" televiziyada nümayiş olunduğu gündən tamaşaçı sevgisi qazandı. Bu film Həsən Məmmədovu birdən-birə şöhrətləndirdi. Oğlu haqqında deyilən tərifli sözlər Ağammədd kişinin də qulağına çatdı. Amma o, hələ də inadkarlıq edir, müəllim olmaqdan vaz keçib teatra üz tutan oğlu ilə barışmırdı. Əslində, üzə vurmasa da, ürəyində oğlunu bağışlamışdı. Küskün atanın qəlbini yumşaldan yalnız xoş, qürurverici sözlər deyildi. Ağamməd kişi kino sənətində elə birinci rolu ilə böyük tamaşaçı diqqəti, rəğbəti qazanan oğlunu ata sözündən çıxmağa vadar edən hisləri anlamışdı.

Demək olmaz ki, kino sənəti Akademik Milli Dram Teatrını Həsən Məmmədov üçün ögeyləşdirdi. O, film çəkilişləri ilə əlaqədar on il müxtəlif müddətlərə teatrdan işdən çıxsa da, yenə geri döndü. Bununla belə, kinoda çəkildiyi çoxsaylı rollar Həsən Məmmədovun yaradıcılığında xüsusi yer tutdu. O, "Böyük dayaq"da Qaraş, "Arşın mal alan"da Əsgər, "Gün keçdi"də Oqtay, "Arxadan vurulan zərbə"də Qəmərlinski, "Bizi bağışlayın"da Nəriman, "Dədə Qorqud"da Dədə Qorqud, "Axırıncı aşırım"da Abbasqulu bəy, "Bir cənub şəhərində" Murad, "Sevil"də Balaş, "Yeddi oğul istərəm"də Bəxtiyar, "Alma almaya bənzər"də Qurban, "Qəm pəncərəsi"ndə Məhəmmədhəsən əmi, "Papaq"da Mirzə Səfər, "Birisi gün gecə yarısı"nda Baba Əliyev, "İstintaq"da Murad, "Qızıl qaz"da Fərman, "Bakıda küləklər əsir"də general, "Səmt küləyi"ndə Əlibala, "İstintaq davam edir"də Əzimov, "Şahid qız"da polkovnik, "Həm ziyarət, həm ticarət"də Əlimurad, "Zirvə"də Kamil... oldu. Həsən Məmmədov dövrünə, yaşına, xarakterinə görə bir-birindən fərqlənən bu ekran ömrü verdiyi qəhrəmanlarını tamaşaçılar üçün yaddaqalan etməyi bacardı.

Çox gənc yaşından tanınmaq, onlarla filmdə irili-xırdalı obrazlar yaratmaq hər sənətkara qismət olmur. Həsən Məmmədovun əməyi yalnız tamaşaçı sevgisi ilə deyil, həm də yüksək fəxri adlarla, mükafatlarla dəyərləndirildi. O, kino sənətində göstərdiyi xidmətlərə görə 1971-ci ildə əməkdar artist, 1982-ci ildə isə xalq artisti fəxri adlarına layiq görüldü. "Yeddi oğul istərəm" filmindəki Bəxtiyar rolu ona Lenin komsomolu mükafatı laureatı, "İstintaq" bədii filmindəki Murad rolu SSRİ Dövlət mükafatı, "Birisi gün gecə yarısı" kinolentindəki Baba Əliyev rolu isə Azərbaycan SSR Dövlət mükafatı gətirdi. 1998-ci ildə isə Həsən Məmmədov "Şöhrət" ordeni ilə mükafatlandırıldı.

Kino aktyoru kimi roldan-rola daha da püxtələşən, məşhurlaşan Həsən Məmmədov 1972-ci il fevralın 2-də kino çəkilişlərinin çoxluğu ilə əlaqədar teatrdan "Azərbaycanfilm" kinostudiyasına keçirildi. Amma aktyor Akademik Milli Dram Teatrından da tamamilə uzaqlaşmadı. O, 1989-cu il mayın 17-də rejissor Ağakişi Kazımovun quruluş verdiyi "Gülüstanda qətl" tamaşasında İlyas İbrahimov rolu ilə yenidən bu teatrın səhnəsinə çıxdı.

## Sənət həsrəti

1990-cı illərdə sovet quruluşu dağıldıqdan sonra kino sahəsində də böhran yarandı. Yeni filmlər çəkilmədiyi üçün Həsən Məmmədov da işsiz qaldı. Mənəvi və maddi cəhətdən çətinlik çəkdiyi o günlərdə Akademik Milli Dram Teatrının direktoru və bədii rəhbəri Həsən Turabovun dəvəti ilə yenidən doğma kollektivinə qayıtdı. 1992-ci il 21 noyabrdan ömrünün sonunadək həmin teatrın aktyor truppasında çalışdı. Bir neçə rol oynadı. Amma ürəyi kinoda qaldı. Kino çəkiliş meydançalarının həsrətini çəkdi. Bu, azmış kimi, bəzi sənətin dəyərini anlamayanların yersiz tənqidləri də ona ağır təsir edirdi. Çünki Həsən Məmmədovun oynadığı Abbasqulu bəy Şadlinski, Bəxtiyar kimi rollara yalnız sovet quruluşunun təbliğatçıları kimi baxmaq düzgün deyil. Nə həmin dövrü, nə də qəhrəmanlarını tariximizdən silə bilərik.

Mərd, ədalətli insan, bənzərsiz aktyor kimi tanınan Həsən Məmmədov bir-birindən maraqlı rolları ilə adını Azərbaycan kino salnaməsində əbədiləşdirdi. Beləcə, "Gün keçdi"... 2003-cü ilin 26 avqustunda Həsən Məmmədov ürək ağrısı ilə "gəlimli-gedimli dünyadan" əbədi köçdü. II Fəxri xiyabanda dəfn edildi.

Bu yubileylər ilində sevimli aktyorun da səksən yaşı tamam oldu. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın kino və teatr sənətinin görkəmli nümayəndəsi Həsən Məmmədovun 80 illik yubileyi qeyd edilir.

Sənət yaşadıqca, sənətkarlar da unudulmur. Həsən Məmmədov ömrünü də teatr səhnəsində, kinoda yaratdığı rolları və xatirələrdə qalan söz-söhbəti davam etdirir...

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Aslan ASLANOV: "FANA-nın qlobal miqyasda müsbət təsiri KUNA agentliyinin bu təşkilata sədrliyinin uğurudur"

Ərəb Xəbər Agentlikləri Federasiyasının (FANA) qlobal miqyasda müsbət təsiri Küveyt Xəbərlər Agentliyinin (KUNA) bu təşkilata sədrliyinin ən mühüm uğurudur.



Bu fikri FANA-nın 46-cı Baş Assambleyasında iştirak etmək üçün Küveytdə səfərdə olan AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) prezidenti Aslan Aslanov KUNA agentliyinə müsahibəsində deyib. O bildirib ki, FANA-nın sədri və KUNA-nın Baş direktoru Şeyx Mübarək Duaic İbrahim əl-Sabah ərəb və beynəlxalq xəbər agentliklərinə böyük dəstək verir.

Aslan Aslanov vurğulayıb ki, o, OANA-nın prezidenti olaraq şəffaf və qərəzsiz xəbərlər yayılmasının təmin edilməsində FANA və KUNA ilə əməkdaşlıq etməyə hazırdır. Müasir dövrdə ənənəvi medianın üzləşdiyi problemlərdən danışan AZƏRTAC-ın İdarə Heyətinin sədri deyib ki, bəzi KİV-də və sosial şəbəkələrdə qeyri-dəqiq, yalan xəbərlər yayılması ciddi narahatlıq doğurur.

Qeyd edək ki, FANA 1975-ci ildə yaradılıb. Mərkəzi qərargahı Livanda yerləşən bu təşkilat öz sıralarında 18 ərəb xəbər agentliyini birləşdirir. Ərəb Liqasının nəzdində fəaliyyət göstərən FANA-nın məqsədi media qurumlarının əməkdaşlığının gücləndirilməsi və üzv agentliklər arasında təcrübə mübadiləsinin genişləndirilməsidir.

Şeyx Mübarək Duaic İbrahim əl-Sabah 2015-ci ildən FANA-ya sədrlik edir.








# Heydər Əliyev Mərkəzində "Soprano" art qrupunun konserti olub

Noyabrın 30-da Heydər Əliyev Mərkəzində Rusiyanın xalq artisti Mixail Turetskinin "Soprano" art qrupunun konserti keçirilib.

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, tamaşaçıları Azərbaycan dilində salamlayan qrup üzvləri Bakıda ilk dəfə çıxış etdiklərini və bu axşam izləyicilərə gözəl musiqilər bəxş edəcəklərini bildiriblər.

Kollektiv konsertdə peşəkar ifa, müxtəlif janrları əhatə edən rəngarəng proqram, sürprizlərlə zəngin şou təqdim edib.

"Soprano" Mixail Turetskinin unikal vokal layihəsidir - qadın səslərinin toplusudur. Art qrupda ən yüksək - koloratur sopranodan ən aşağı - mezzoyadək fərqli səslərə rast gəlmək mümkündür. Kollektivin repertuarına müxtəlif janrlarda əsərlər - klassika, pop, rok, folklor, caz daxildir. Qrup musiqi şoularını auditoriya ilə interaktiv şəkildə təqdim edir.




"Soprano" bir sıra beynəlxalq idman tədbirlərinin - Soçidə keçirilmiş Formula 1 Qran-Pri yarışının, hər il keçirilən "Birinci kanalın kuboku" xokkey turnirinin və s. musiqili səfiri olub.

Muxail Turetskinin "Soprano" və "Turetski xoru" qrupları 2017-ci ildə bir sıra ölkələrdə "Qələbə mahnıları" adlı sülhməramlı aksiya təqdim edib. "Soprano" Pekində dünyanın ən böyük televiziya şoularından olan "Spring Festival Global Gala 2016"da çıxış edib və həmin efiri bir milyard tamaşaçı izləyib.

Qeyd edək ki, oktyabrın 10-da Heydər Əliyev Mərkəzində, həmçinin "Turetski xoru"nun konserti olub. Anşlaqla keçən konsert böyük maraqla izlənilib.

# BURA LAHICDIR...








Lahıc Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. İsmayıllı rayonunun tarixi erkən orta əsrlərə gedib çıxan bu qəsəbəsinin nadir arxitekturası həmişə diqqəti cəlb edib. Bu gün Lahıc Tarix-Mədəniyyət Qoruğunda 90-dan çox tarixi abidə qorunur. Lahıcda 100-dən artıq sənət növü və peşə atalardan oğullara ötürülərək yaşayır, davam və inkişaf etdirilir.

Qəsəbədə tarixlə müasirlik ayrılmaz birlik yaradıb. İndi Lahıc həm də rahat yolu, ən müasir avadanlıqlarla təchiz olunmuş orta məktəbi, hər evinə qaz xətti çəkilmiş abad bir yaşayış məntəqəsidir.

Lahıc həmişədən qonaqsevərdir. Turizmin inkişafının geniş vüsət aldığı indiki zamanda isə onun qonaq-qarası daha çox olur.

*Foto Ağaəli MƏMMƏDOVUNDUR, "Azərbaycan"*

## "Azərişıq" ASC Müxtəlif elektrik sazlama cihazları və cihaz təmizləmə mayelərinin satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**LOT-1**
Müxtəlif elektrik sazlama cihazları və cihaz təmizləmə mayelərinin satın alınması - 400 manat
**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: № AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 yanvar 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **21 yanvar 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 yanvar 2019-cu il tarixdə saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 10 sentyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar arasında idman tədbirlərinin təşkili və onların beynəlxalq yarışlarda iştirakına şərait yaradılması" adlı təkrar müsabiqənin qalibləri Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi və Boccia İdman Federasiyası, 12 sentyabr 2018-ci il tarixdə keçirilmiş "Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi proqramlar ilə idman, incəsənət və xalq sənəti növlərinin öyrədilməsinə yardım göstərilməsi" adlı təkrar müsabiqənin qalibi "ƏSA" MMC, 19 sentyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının təşkili məqsədi ilə onların istirahət zonalarına göndərilməsi" adlı təkrar müsabiqənin qalibləri "Turkom" MMC və fiziki şəxs Həsənov Zabit Əhməd oğlu, 26 sentyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı təkrar müsabiqənin qalibi Naxçıvan MR Səhiyyə Nazirliyi, 28 sentyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılması məqsədi ilə təbliğat kampaniyasının təşkili" adlı təkrar müsabiqənin qalibi Royal Events MMC, 05 noyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar arasında idman tədbirlərinin təşkili və onların beynəlxalq yarışlarda iştirakına şərait yaradılması" adlı təkrar müsabiqənin qalibi AR Milli Paralimpiya Komitəsi, 06 noyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı təkrar müsabiqənin qalibləri "Abşeron" İxtisaslaşdırılmış Mədə-Bağırsaq Sanatoriyası, "Günəşli" İxtisaslaşdırılmış Nevroloji Sanatoriyası, "Bilgəh" Kardioloji Sanatoriyası, "Qaranquş" İxtisaslaşdırılmış Uroloji Sanatoriyası, 30 oktyabr 2018-ci il tarixdə keçirilmiş Sağlamlıq imkanları məhdud uşaqlar üçün (Balakən rayonu üzrə) icma əsaslı sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili" adlı təkrar müsabiqənin qalibi "Könül evi" Aztəminatli Ailələrə Yardım İB, "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası" adlı təkrar müsabiqənin qalibi "Müşviq" Qaradağın Əlil Uşaqlarına Yardım İB, "Xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtının təşkili" adlı müsqabiqənin qalibləri "Arabaçı Əlillər Şəbəkəsi" İB, - Əlillərin Beynəlxalq Əməkdaşlığı Uğrunda" Cəmiyyəti İB, "Kənd Qadınlarına Qayğı" İB və "Uşaq və Gənclərin İnkişafına Dəstək" İB, "Görmə imkanları məhdud uşaqlar üçün müyəssər formatlı nəşrlərin hazırlanması" adlı müsabiqənin qalibləri "Ailə" Sosial Araşdırmalar İB və "Əlil Ziyalılar" İB, "Sağlamlıq imkanları məhdud uşaqlarla davranış üzrə valideynlərə dəstək göstərilməsi" adlı müsabiqənin qalibi "Azad İqtisadiyyatın İnkişafına Yardım" İB, "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi" adlı müsabiqənin qalibləri Goranboy və Tərtər rayonu üzrə "Gələcəyə qayğı" regionların sosial-iqtisadi inkişafına dəstək İB, Göygöl rayonu üzrə Əlil Qadınlar Cəmiyyəti, Hacıqabul və Qusar rayonu üzrə Ailə Sosial Araşdırmalar İB, Neftçala rayonu və Gəncə şəhəri üzrə Uşaq və Gənclərin İnkişafına Dəstək İB, Oğuz rayonu üzrə "Mərhəmət" Kimsəsizlərə Yardım İB, Salyan rayonu üzrə "Müşviq" Qaradağın Əlil Uşaqlarına Yardım İB, Şirvan şəhəri üzrə Tərəqqi Sosial Tədqiqatlar İB, Ucar və Zərdab rayonu üzrə "Ümman" Əlil Uşaqlara Qayğı İB, Abşeron rayonu üzrə İnklüziv Cəmiyyət Naminə Əlilliyi olan şəxslərə dəstək İB, Masallı və Zaqatala rayonu üzrə Vətəndaşların Sosial Rifahı Naminə İB olmuşdur.

***Müsabiqə komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR



### Corc Buş (ata) vəfat etdi

ABŞ-ın eks-prezidenti Corc Buş (ata) 94 yaşında vəfat etmişdir. Bu barədə "The New York Times" qəzeti xəbər verir. Onun ölümünün səbəbi hələ ki dəqiqləşdirilmir.

Bu ilin may ayında Buş aşağı təzyiq və zəifliyə görə xəstəxanaya çatdırılmışdı. Bundan bir ay əvvəl isə onun 92 yaşlı həyat yoldaşı Barbara Buş dünyasını dəyişmişdir. O, Qrevys (qalxanvari vəz) xəstəliyindən əziyyət çəkirdi.

Corc Buş 1989-1993-cü illərdə dövlət başçısı vəzifəsini tutmuşdur. Onun hakimiyyəti dövründə - 1989-cu ildə Berlin divarı uçurulmuş, 1991-ci ildə SSRİ dağılmışdır.

### Türkiyədə 41 terrorçu zərərsizləşdirildi



Son bir həftə ərzində Türkiyənin daxilində və onun hüdudlarından kənarda keçirilmiş əməliyyatlar nəticəsində 41 terrorçu zərərsizləşdirilmişdir. Bu barədə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, terrorçu təşkilatlara, ilk növbədə PKK/KCK/PYD/YPG və İŞİD-ə qarşı keçirilmiş əməliyyatlar zamanı 11 tüfəng, 1 tank əleyhinə silah, 998 döyüş sursatı, 10 qumbaraatan, 335 kiloqram ammonium nitratı, 6 kiloqram C-4 partlayıcı maddəsi, 63 dinamit şaşkası, 7 əl qumbarası və kustar üsulla hazırlanmış 11 partlayıcı qurğu məhv edilmişdir.

Bununla yanaşı, terrorçuların 44 atəş mövqeyi, sığınacağı və anbarı dağıdılmışdır.

### Braziliyada təyyarə yaşayış evinin üstünə düşdü



Braziliyanın şimalında, San-Paulu şəhərində yüngül mühərriklli "Cessna 210N" təyyarəsi ikimərtəbəli yaşayış evinin üstünə düşmüşdür. Hadisə nəticəsində 2 nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır. Bu barədə yerli yanğınsöndürmə xidməti məlumat vermişdir.

Qəzadan sonra baş vermiş yanğında yaşayış evinin yaxınlığında olan iki avtomobil sıradan çıxmışdır. Qəzanın səbəbi hələ ki məlum deyil.

Təyyarə Kampu-di-Marti aeroportundan havaya qalxmışdı.

Xatırladaq ki, ötən ilin fevralında içərisində ər-arvad və üç yeniyetmə olan "Cessna 310" təyyarəsi San-Xosedəki Riversayd aeroportundan havaya qalxdıqdan bir neçə dəqiqə sonra yaşayış evlərinin üstünə düşmüşdür. Qəza nəticəsində təyyarənin dörd sərnişini həlak olmuşdur. Bir yeniyetmə qız sağ qalmışdır.

### Brüsseldə "sarı jiletlər"in etiraz aksiyaları genişlənir

Belçikanın paytaxtı Brüsseldə yanacağın qiymətinin artmasına etiraz əlaməti olaraq kütləvi aksiyalar davam edir. "Sarı jiletlər"in nümayişləri Avropa İttifaqının təsisatlarının yerləşdiyi məhəlləyə keçmişdir. Paytaxtın mərkəzində baş vermiş iğtişaşlar zamanı iki avtomobil yandırılmışdır. Onlardan biri polis avtomobilidir.

Yerli KİV-in xəbərinə görə, təhlükəsizlik qüvvələri etirazçılara qarşı təzyiqli su və gözyaşardıcı qazdan istifadə etmişdir. Kütləvi iğtişaşlara görə ictimai nəqliyyatın hərəkəti pozulmuş, iri avtomobil magistrallarında tıxaclar yaranmışdır.

Etirazların davam etdiyi rayona atlı polis dəstələri gəlmişdir. Ərazi üzərində polis helikopteri uçur.

Bu arada Brüssel meri Filipp Kloze "sarı jiletlər"in etiraz aksiyalarının keçirilməsinə qadağa qoyulduğunu elan etmişdir. O bildirmişdir ki, icazəsiz yürüşlərin iştirakçıları saxlanılacaq.

Hüquq-mühafizə orqanlarından verilən məlumata görə, dünən səhərdən başlayaraq 60 etirazçı həbs edilmişdir.

Kütləvi aksiyalar Belçikaya Fransadan keçmişdir. Fransada "sarı jiletlər"in kütləvi nümayişləri artıq iki həftədir səngimir.

### Alyaskada güclü zəlzələ



ABŞ-ın Alyaska ştatında 7,0 bal gücündə zəlzələ baş vermişdir. Bu barədə "Fox News" telekanalı xəbər verir.

Zəlzələnin episentri ştatın ən böyük şəhəri olan Ankoricin 13 kilometrliyində, təxminən 40 kilometr dərinlikdə qeydə alınmışdır. Güclü yeraltı təkandan sonra 40-a yaxın afterşok baş vermişdir.

Təbii fəlakət nəticəsində evlərdə və yollarda çatlar əmələ gəlmiş, bəzi rayonlar işıqsız qalmışdır. Tələfat barədə məlumat verilmir.

Ştatda fövqəladə vəziyyət rejimi tətbiq olunmuşdur. Hakimiyyət orqanları fəlakətin vurduğu ziyanı dəqiqləşdirir.

Xatırladaq ki, 1964-cü ildə Alyaskada 9,2 bal gücündə dəhşətli zəlzələ baş vermişdir. Nəticədə Şahzadə Uilyam körfəzi rayonundakı bütün evlər dağılmışdır. Fəlakətin vurduğu ümumi iqtisadi ziyan 50 milyon dollar təşkil etmişdir.

### Təbii fəlakət Gürcüstanın bölgələrində ciddi fəsadlar törədib

Güclü külək və qasırğa Gürcüstanda ciddi fəsadlar törədir. Dekabrın 1-də gecə saatlarında İmereti, Meqreli-Zemo (Yuxarı) Svaneti və Quriya bölgələrindən Gürcüstanın Fövqəladə Hallar Xidmətinə, ümumilikdə, 465 müraciət daxil olub.

İmereti bölgəsində ən çox ziyan Kutaisi şəhərinə dəyib. Güclü külək və qasırğa bu şəhərdə 170 evin dam örtüyünü uçurub. Yol və magistrallarda 150 ağac aşıb və nəticədə 5 avtomobil əzilərək yararsız hala düşüb. Meqreli-Yuxarı Svaneti bölgəsində 46 evin damını külək aparıb. Elektrik şəbəkəsinə ciddi ziyan dəyib, bölgəyə elektrik enerjisinin verilməsi dayandırılıb. Quriya bölgəsində isə əsasən ağacların aşması nəticəsində elektrik xətləri zədələnib. Hazırda bu ərazilərdə təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün Fövqəladə Hallar Xidmətinin 500-dən çox xilasedicisi cəlb olunub.

Güclü qar səbəbindən Gürcüstandan Rusiyaya gedən əsas magistral yolda qoşqulu və qoşqusuz yük maşınlarının hərəkəti qadağan edilib.

# Maraq dünyamız

### İordaniyalı fermer orta əsrlərə aid tikili aşkar edib



İordaniyalı fermer Fayiz Ravaşdeh paytaxt Əmmanın 220 kilometr cənubunda yerləşən Şobak qədim qəsrinin ətrafındakı torpaq sahəsində işlədiyi vaxt orta əsrlərə aid tikili tapıb.

Yerli KİV xəbər verir ki, fermer Əyyubilər-Məmlüklər dövrünə aid (1170-1516-cı illər) qədim tikili aşkar edib. Krallığın Qədim Abidələr Departamentinin Maan bölməsinin müdiri Əşrəf Rauş bildirib ki, tapılmış tikili nadir tarixi abidədir. Günümüzədək yaxşı qalan bu binanın bir neçə tağı, mərkəzində fəvvarə olan həyəti, mozaika ilə bəzədilmiş döşəməsi və hamam otağı var.

Bildirilir ki, dövlət tarixi tikilini qorumaq məqsədilə torpaq sahəsini fermerdən satın almaq istəyir. Bu abidə İordaniyanın arxeoloji abidələri siyahısına da daxil ediləcək.

### Dünyada ilk "Airbus A330-900neo" təyyarəsini "TAP Air Portugal" əldə edib




"TAP Air Portugal" aviaşirkəti dünyada ilk yeni nəsil geniş fyuzelajlı "Airbus A330-900neo" təyyarəsini alıb. 2019-cu ilin sonuna qədər aviaşirkət daha 19 belə təyyarə əldə edəcək. "euromag.ru" saytı xəbər verir ki, təyyarənin salonu "Airspace by Airbus" adlanır. Burada 298 kreslo quraşdırılıb. Kresloların 34-ü "biznes-klass"da yerləşir və çarpayı kimi açılır, 96-sı "ekonom-plyus klass"da, 168-i "ekonom-klass"da yerləşir.

"Airspace by Airbus" hər bir sərnişin üçün daha geniş yer, daha tutumlu baqaj rəfləri, daha yaxşı işıqlandırma və simsiz Wi-Fi ilə bərabər ən müasir əyləncə sistemi ilə təchiz edilib.

Yeni təyyarə ilə Portuqaliyadan Şimali və Cənubi Amerika, habelə Afrika ölkələrinə uçuşlar həyata keçiriləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatı aparatının kollektivi təşkilatın sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İxtiyar Hüseynli və Rəşad Cəfərli Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Daxili İşlər Nazirliyinin rəhbərliyi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsmayıllı Rayon Məhkəməsinin sədri Rəfayel Şirinov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Ələsgər Əliyevə qardaşı

**HƏSƏNALININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8412
Sifariş 3543